Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

1

MAY 2019-cu il

№ 77 (3975)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# «ATATÜRK-2019» - ERMƏNİSTANA QARABAĞ TƏZYİQLƏRİNİ ARTIRAN HADİSƏ KİMİ...

səh. 9



səh. 3-4

## Azərbaycan iqtisadi strategiyanı dəyişir - əvvəlki baza üzərində yeni sistem...

*Azərbaycanın aqrar bölməsini son buxovlardan da azad edəcək yeni model - proses bütünlüklə Prezidentin iradəsindədir...*

Prezident ən ümdə məsələlərlə bağlı Azərbaycan xalqının güvənini yenidən artırdı
səh. 3

Türkiyə-Rusiya hərbi yaxınlaşması Azərbaycana əlavə imkanlar açır - iyul-avqust aylarında fərqli vəziyyət yaranacaq
səh. 8

Azərbaycanın qaz strategiyasının özünü tam doğrultduğuna yeni sübutlar...
səh. 4

Qida Təhlükəsizliyi Agentliyi yeni səlahiyyətlərlə köhnə problemlərin üstünə yeriyəcək...
səh. 7

Bakıda ictimai nəqliyyatla sığorta şirkətləri arasında böyük problem var - Avtobusları sığortalamaqdan niyə imtina edilir...
səh. 14

İnternetdə Azərbaycan uşaqlarının şüuraltına işləyən düşmən filmlər yayılır...
səh. 15

İnsan alverinin qurbanı 800 azərbaycanlı - 70 faizi Türkiyənin hesabında...
səh. 13



Azərbaycan dövlətinin dəstəyi olmadan Rusiya azərbaycanlılarının yeni qurumu uğur qazana bilərmi...
səh. 5

Ötən il Azərbaycana gələn turistlərin sayı artıb, gəlir isə azalıb, maraqlı prosesin səbəbləri...
səh. 7

«Meydan TV»nin xaricdə gizli sahibləri barədə ifşaedici faktlar açılır...
səh. 6

səh. 8
Makron və Merkel Balkanları I Dünya Müharibəsi ərəfəsindəki oxşar təhlükəyə sürükləyir



səh. 5
Ermənistan Avrasiya İqtisadi Birliyinin sədrliyini narahatlıqla qəbul edib...



səh. 12
Orta məktəblərdə dinin fənn kimi tədris olunmasına qarşı vahid mövqe var - Nazirliyin mövqeyi güclü çıxdı...



səh. 13
Şou-biznes adamları yenidən televiziyaların bədii şuralarında peyda olmağa başlayıb...



səh. 14
Rayonlarda çoxluq təşkil edən "Jiquli" avtomobilləri - əsas təhlükə mənbələrindən biri...



## ABŞ Dövlət Departamentinin səlahiyyətli rəsmisi oktyabrdan sonra ikinci dəfə Azərbaycana gəldi

**Prezident İlham Əliyev aprelin 30-da ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini Corc Kenti qəbul edib.**

Prezident ölkələrimiz arasında əməkdaşlığın inkişafından məmnunluğunu ifadə edərək, əlaqələrimizin siyasi, iqtisadi, ticarət, enerji, təhlükəsizlik və digər sahələrdə genişləndiyini vurğulayıb. Azərbaycanın ABŞ-la ikitərəfli əlaqələri tərəfdaşlıq müstəvisində davam etdirmək niyyətində olduğunu deyən dövlət başçısı son dövrlər ərzində ölkələrimiz arasında qarşılıqlı təmasların və tədbirlərin əhəmiyyətini vurğulayıb və bu müsbət dinamikanın davam etdiriləcəyinə ümidvar olduğunu bildirib.

Keçən ilin oktyabrında Azərbaycana səfərini xatırlayan ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini Corc Kent ikitərəfli əlaqələrimizdə olan bu müsbət dinamikanı davam etdirmək məqsədilə ölkəmizə səfər etdiyini deyib, ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltonun ölkəmizə səfəri və onun ardınca aparılan danışıqların əhəmiyyətini vurğulayıb.

Görüşdə dövlət başçısı ABŞ Prezidenti Donald Trampın "Cənub Qaz Dəhlizi" layihəsinə göstərdiyi dəstəyi yüksək dəyərləndirib.

ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini Corc Kent, öz növbəsində, Azərbaycanın Əfqanıstanda Qətiyyətli Dəstək Missiyası çərçivəsində NATO-ya üzv və tərəfdaş dövlətlər, o cümlədən ABŞ üçün təmin edilən tranzit-logistika dəstəyinə görə minnətdarlığını ifadə edib.

Söhbət zamanı ölkəmizin demokratik inkişafı, məhkəmə-hüquq sistemi və sosial-iqtisadi sahədə aparılan islahatlara dair fikir mübadiləsi aparılıb.

## Qorbaçov danışdı - ABŞ və Rusiya təhlükəli yoldadır

**Rusiya və ABŞ strateji dialoq yaratmalıdır, çünki nüvə silahı sülhü qorumur, əksinə, onu təhlükəyə atır. "Trend"in məlumatına görə, bu fikirləri SSRİ-nin sabiq prezidenti Mixail Qorbaçov bildirib.**

Keçmiş prezident "Wall Street Journal" qəzetinə deyib ki, hər iki dövlət təhlükəli yoldadır: "Bu gün ABŞ və Rusiya təhlükəli yoldadır. Onlar dayanmalı və düşünməlidirlər. Soyuq müharibə veteranları artıq danışıb qurtarıblar. İndi bizim ölkələrin liderlərinin söz demək zamanıdır".

# Azərbaycanda işləyən xarici diplomatların Qazax və Tovuza səfəri başladı...

**30 aprel-1 may tarixlərində Xarici İşlər Nazirliyinin təşkilatçılığı ilə ölkəmizin regionlarının inkişafı və bölgələrdə həyata keçirilən sosial-iqtisadi layihələr, habelə turizmin inkişafı ilə yerindəcə tanış olmaq məqsədilə Azərbaycanda fəaliyyət göstərən diplomatik nümayəndəliklərinin rəhbərləri və onların xanımlarının Qazax və Tovuz rayonlarına tanışlıq səfərləri təşkil olunur.**



Xarici İşlər Nazirliyi Mətbuat xidmətindən baki-xeber.com-a verilən məlumata görə, səfər çərçivəsində diplomatlar Qazax rayonunda "Damcılı" mağarası, Qazax Sement Zavodu, Şəhidlər xiyabanı, Qazax Müəllimlər Seminariyası və Tarixi Cümə Məscidi, "Saloğlu" mebel fabriki, eləcə də Ədəbiyyat Muzeyi və Tarix Diyarşünaslıq Muzeyi ilə tanış olacaqlar.

Eyni zamanda, diplomatlar Tovuz rayonunda Heydər Əliyev adına mədəniyyət və istirahət parkı, "Göytəpə" qədim yaşayış məskəni və "Tovuz Baltiya LTD" konyak klubu ilə tanış olacaqlar.

# Ceyhun Bayramov "Facebook" səhifəsində 10 il əvvəlki terror aktı barədə yazdı...



**Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) baş verən məşum hadisə bizi terrora "yox" deməyə səsləyir.**

"Trend"in məlumatına görə, bunu təhsil naziri Ceyhun Bayramov Azərbaycan Dövlət Neft və Sənaye Universitetində 10 il əvvəl baş verən terror aktına görə "faceboook" səhifəsində yazdığı başsağlığında qeyd edib.

Nazir qeyd edib: "Bu gün Azərbaycan Dövlət Neft və Sənaye Universitetində törədilən terror aktından 10 il keçir. İnsan tələfatı ilə nəticələnən qanlı qətl hadisəsi zamanı dünyasını dəyişənlərə Allahdan rəhmət diləyir və ailə üzvlərinə başsağlığı verirəm. Bu məşum hadisə şiddətə, terrora yox deməyə, bizi birləşdirən insani dəyərləri daha çox bölüşməyə səsləyir".

DEMOKRATİK, MÜSTƏQİL QƏZET
BAKI XƏBƏR
www.baki-xeber.com
Həftədə 5 dəfə çıxır
Qəzet 2003-cü ildən nəşr olunur

«Bakı-Xəbər» qəzetini hər səhər evinizdə və iş yerinizdə əldə etməyin ən asan yolu -
Abunə!
Abunə istəyinizdən asılı olaraq 1-12 aylıq müddətə yazılır.

1 aylıq abunə qiyməti - **8 AZN**
3 aylıq abunə qiyməti - **24 AZN**

**Abunə yazılışı aşağıdakı mətbuat yayım şirkətləri vasitəsilə həyata keçirilir:**

**QAYA - telefonlar:** (012) 564-63-45; 564-48-96
**Azərmətbuatyayım:** (012) 441-19-91; 440-27-85; 440-39-83
**Press İnform:** (012) 498-00-80; (055) 315-60-02

# ABŞ-ın Beynəlxalq Dini Azadlıqlar üzrə Komissiyası Azərbaycana dair növbəti illik hesabat yayıb

**ABŞ-ın Beynəlxalq Dini Azadlıqlar üzrə Komissiyası (USCİRF) Azərbaycana dair növbəti illik hesabatı yayıb. "Trend"in məlumatına görə, komissiya öz fəaliyyətində bir sıra ölkələrə qarşı qərəzli yanaşma ilə seçilir.**




Ötən illərdə olduğu kimi, bu il də hesabatda Azərbaycana dair bəzi qeyri-obyektiv məqamlar öz əksini tapıb. Lakin, əvvəlki illərdən fərqli olaraq, Komissiyanın 9 üzvündən biri, Xristian Liderləri Konqresinin sədri, yevangelist icmasını təmsil edən Coni Mur bu qərəzli yanaşma ilə razılaşmayaraq öz xüsusi rəyini açıqlayıb və bu mövqe hesabata daxil edilib.

Coni Mur Azərbaycanın məhz dini tolerantlığa görə tanındığını, burada müxtəlif məzhəb və dinlərin nümayəndələrinin qarşılıqlı hörmət şəklində, tam azad və təhlükəsiz şəraitdə birgə yaşayıb ibadət etdiklərini vurğulayıb. O, hökumətin dini azlıqlarla məşğul olan beynəlxalq qurumların müraciətlərinə çox məsuliyyətlə yanaşdığını müşahidə etdiyini qeyd edib. Həmçinin ABŞ-ın Beynəlxalq Dini Azadlıqlar üzrə Komissiyasının üzvü Azərbaycanın yerləşdiyi coğrafi məkanı nəzərə alaraq, dini azlıqlarla məşğul olan beynəlxalq qurumların hökumətin zorakı dini ekstremizm və milli təhlükəsizliklə bağlı narahatlıqlarını nəzərə almalı olduqlarını vurğulayıb. Sonda o, Ermənistanla Azərbaycan arasında sülhün tezliklə əldə edilməsinin zəruriliyini qeyd edib.

C.Murun sözügedən prinsipial və obyektib mövqeyi USCİRF-in illik hesabatının əlavəsi kimi dərc edilib.

**C.Mur ötən il ABŞ-dan gələn bir qrup dini xadimlərin tərkibində ölkəmizə səfər edib və bilavasitə yerində mövcud olan vəziyyətlə tanış olmaq imkanı əldə edib.**

**Aydın Quliyev Azər Həsrətin qaynatası Vəliyev İsrail Hüseyn oğlunun vəfatı ilə əlaqədar üz vermiş kədərə qəlbən şərik olduğunu bildirir və dərin hüznlə başsağlığı verir.
Allah rəhmət eləsin!**

# Prezident ən ümdə məsələlərlə bağlı Azərbaycan xalqının güvənini yenidən artırdı

*Nazirlər Kabinetinin ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirildi*

**Aprelin 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.**

Dövlət başçısı İlham Əliyev keçən il prezident seçkilərindən sonra islahatların yeni mərhələsinin başladığını və onun icrası üçün məqsədyönlü addımlar atıldığını bildirdi. "İslahatlara alternativ yoxdur", - deyən Prezident İlham Əliyev vurğuladı ki, son 15 ildə Azərbaycan qədər dünyada inkişaf edən ikinci ölkə yoxdur.

Birinci rübdə büdcə daxilolmalarının artdığını, bununla da əlavə maliyyə resursunun formalaşdığını deyən dövlət başçısı ilin əvvəlindən ümumi daxili məhsulun, sənaye istehsalının, qeyri-neft sənayesinin, kənd təsərrüfatının, əhalinin gəlirlərinin artdığını, ölkə iqtisadiyyatına 2,8 milyard dollar sərmayə qoyulduğunu dedi. Qeyd etdi ki, Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan 25-ci yerə layiq görülüb və 10 ən islahatçı ölkə arasındadır. İlin əvvəlindən böyük həcmli sosial paketin icra edildiyini deyən Prezident İlham Əliyev minimum əməkhaqqının, minimum pensiyaların, məcburi köçkünlərə verilən müavinətlərin, tələbələrin təqaüdlərinin və digər sosial müavinətlərin artdığını bildirdi, problemli kreditlərlə bağlı məsələnin və vaxtilə tikilən, lakin istismara qəbul edilməyən binalarla bağlı yaranan problemin həll olunduğunu vurğuladı.

"Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır və vətəndaşın rifahı üçün biz əlimizdən gələni edirik", - deyən Prezident İlham Əliyev regionların sosial-iqtisadi inkişafına dair dördüncü Dövlət Proqramının əhəmiyyətindən danışdı.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən bəhs edərkən dövlət başçısı bildirdi ki, bu məsələ ilə bağlı Azərbaycanın mövqeyində heç bir dəyişiklik yoxdur və münaqişə ölkəmizin ərazi bütövlüyü, suverenliyi çərçivəsində, beynəlxalq hüququn normalarına uyğun həll olunmalıdır.

Sonra Prezidentin iqtisadi siyasət və sənaye məsələləri üzrə köməkçisi Natiq Əmirov, kənd təsərrüfatı naziri İnam Kərimov, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə heyətinin sədri Zaur Əliyev görülən işlərlə bağlı məruzə etdilər.

Prezident İlham Əliyev yekun nitqində hazırda iqtisadiyyatın yeni inkişaf strategiyasının hazırlandığını, ölkədə aparılan islahatların beynəlxalq qurumlar tərəfindən dəstəklendiyini bildirdi. Dövlət başçısı ilin sonuna qədər elektrik enerjisi, qazlaşdırma, içməli su, meliorativ tədbirlər, xarici sərmayələrin cəlbi, məcburi köçkünlər və şəhid ailələ-



rinin yeni mənzillərlə təmin olunması ilə bağlı görüləcək işlərdən danışdı. Son 15 ildə ölkədə 2 milyon yeni iş yerinin yaradıldığını, əhalinin sayının 10 milyona çatdığını, bunun da qarşıda yeni vəzifələr qoyduğunu deyən Prezident İlham Əliyev bildirdi ki, bu il də sosial infrastruktur layihələrinin icrası diqqət mərkəzində saxlanılacaq. Ağsu, İsmayıllı və Şamaxı rayonlarında baş verən zəlzələnin fəsadlarının uğurla aradan qaldırıldığını deyən dövlətimizin başçısı Azərbaycan vətəndaşlarını əmin etdi ki, dövlət hər zaman onların yanında olacaq.

Sonda Prezident İlham Əliyev 2019-cu ilin də xalqımız üçün uğurlu olacağına əminliyini ifadə etdi.



*”...iqtisadi inkişafa daha sistemli yanaşmanın nümayiş etdirilməsinə imkan verəcək”*

# Azərbaycan iqtisadi strategiyanı dəyişir - əvvəlki baza üzərində yeni sistem...

***Vüqar Bayramov:** ”İqtisadiyyatın inkişaf strategiyası ”Makkenzi” şirkəti tərəfindən hazırlanır və 5 illik müddəti əhatə edəcək”*

**Aprelin 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.**

İclasda bir sıra məsələlərə toxunulub, o cümlədən, Azərbaycan iqtisadiyyatının qarşıdakı illərdə inkişafı məsələsinə toxunulub.

Prezident İ.Əliyev qeyd edib ki, hazırda iqtisadiyyatın yeni inkişaf strategiyası hazırlanır və ölkədə aparılan islahatlar beynəlxalq qurumlar tərəfindən dəstəklənir.

**Ölkə iqtisadiyyatının inkişafı istiqamətində hazırlanan yeni strategiyanın əhəmiyyəti barəsində danışan iqtisadçı-ekspert Vüqar Bayramov "Bakı-Xəbər"ə açıqlamasında bunları dedi:** "Məndə olan məlumata görə, inkişaf strategiyası "Makkenzi" şirkəti tərəfindən hazırlanır və 5 illik müddəti əhatə edəcək. Strategiya hazır olduqdan sonra yerli mütəxəssislərlə də müzakirəsi həyata keçiriləcək. Müzakirə bitdikdən sonra strategiyanın dövlət başçısı tərəfindən təsdiq olunması gözlənir".

Həmsöhbətimiz onu da vurğuladı ki, "Makkenzi" şirkəti bir sıra ölkələr üçün də inkişaf strategiyası hazırlayıb. Həmin strategiyalarla tanış olmuşuq: "Makkenzi" şirkətinin hazırladığı strategiyada diqqətçəkən məqamlardan biri də hər bir sektor üzrə konkret ideya və layihələrin olmasıdır. Eyni zamanda, fəaliyyətlərin ümumdaxili məhsula, məşğulluğa necə təsir göstərməsi də qeyd olunur".

V.Bayramov hesab edir ki, inkişaf strategiyasının hazırlanması və qəbul olunması iqtisadi inkişafa daha sistemli yanaşmanın nümayiş etdirilməsinə imkan verəcək. Strategiya qəbul olunduqdan sonrakı 5 il ərzində ölkədə həm sistemli, həm sosial baxımdan dərinləşmiş islahatlar həyata keçiriləcək".

**İqtisadçının fikrincə, hazırlanacaq yeni strategiya ölkə iqtisadiyyatının inkişafına səbəb olacaq.**

***Günel CƏLİLOVA***

**Aprelin 30-da Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib. Dövlət başçısı ötən il prezident seçkilərindən sonra islahatların yeni mərhələsinin başladığını və onun icrası üçün məqsədyönlü addımlar atıldığını bildirib.**



*"Verilən subsidiya və güzəştli kreditlərin daha səmərəli istifadəsinə diqqət artacaq"*

# Azərbaycanın aqrar bölməsini son buxovlardan da azad edəcək yeni model - proses bütünlüklə Prezidentin iradəsində...

## *Fikrət Yusifov: "Aqrar sahədə islahatların daha sürətlə həyata keçiriləcəyi gözlənir"*

Bununla yanaşı, Prezident bir sıra sahələrdə yeni iqtisadi islahat kursu elan etdi. Bunlardan biri də kənd təsərrüfatı ilə bağlıdır. Onu da qeyd edək ki, indiyə qədər kənd təsərrüfatında bir neçə mərhələdə islahatlar həyata keçirilib. Kənd təsərrüfatının inkişafı ilə bağlı bir sıra torpaqlar, müəssisələr özəlləşdirilib. Aqrar sahənin inkişafı ilə bağlı yeni emal müəssisələri tikilib. Fermerlərə güzəştli şərtlərlə kreditlər verilir. Həmçinin, bu sahədə aparılan islahatlar çərçivəsində fermerlərin subsidiyalarla təmin olunması ilə bağlı mexanizmlər hazırlanıb. Aqrar sektor bütün dünyada tam rentabelli sahə sayılmır. Bu səbəbdən bir çox inkişaf etmiş ölkə kənd təsərrüfatına hər il böyük həcmdə subsidiyalar ayırır.

Azərbaycanda indiyə qədər 17 aqropark tikilib. Bu il daha 10 aqroparkın tikiləcəyi gözlənir. Eyni zamanda, Kənd Təsərrüfatı Nazirliyi tabeliyində Dövlət Aqrar Ticarət Şirkəti yaradılıb. Ötən il nazirliyin rayon və şəhər idarələri ləğv edilərək əvəzində Dövlət Aqrar İnkişaf Mərkəzi (DAİM) təsis edilib. Kənd Təsərrüfatı Nazirliyində Fermerlər Şurası təsis edilib. Həmçinin, nazirlik yanında Aqrar Məşvərət Şurası yaradılıb.

Bütün bunların fonunda, kənd təsərrüfatında əvvəlki və indi elan olunmuş islahat kursları arasında hansı oxşar və fərqli xüsusiyyətlər olacaq?

**Məsələyə münasibət bildirən iqtisad elmləri doktoru Fikrət Yusifovun sözlərinə görə, islahatlarda bəzi oxşar və fərqli məqamlar olacaq:** "Aqrar sahədə islahatların daha sürətlə həyata keçiriləcəyi gözlənir. Bu fazaya keçməkdə məqsəd odur ki, nəticələr daha səmərəli olsun. Çünki son illər ərzində aqrar sektora diqqət artıb. Aqrar sektorda yetişdirilən müxtəlif məhsullara subsidiyalar ayrılır. Bu vaxta qədər bir sıra güzəştli kreditlər verilib. Çox güman ki, bundan sonra da bununla bağlı işlər görüləcək. Sumqayıtda böyük Azot zavodu tikilib. Bir var azotu idxal edəsən, bir də var buna olan tələbatı yerli istehsal hesabına ödəyəsən. Ancaq Kənd Təsərrüfatı Nazirliyinin keçmiş rəhbərliyi dövründə aqrar sektorda istənilən nəticələr əldə olunmayıb. Ən azı, iki-üç dəfə yuxarı nəticələr gözləyirdik. Ancaq belə olmadı. Halbuki, rəhbərlik öz işinə məsuliyyətlə yanaşsaydı, aqrar sektorda daha böyük nəticələr əldə olunardı. Ona görə də rəhbərlik dəyişdi. Oxşar xüsusiyyətlər o olacaq ki, subsidiyalar, güzəştli şərtlərlə bu il də kreditlər veriləcək. Fərqli məqam isə o olacaq ki, verilən subsidiya və güzəştli kreditlərin daha səmərəli istifadəsinə diqqət artacaq. Bu sahədə yeni mexanizmlər tətbiq ediləcək ki, bu da aqrar sektorda şəffaflığın artırılmasında mühüm rol oynaya bilər. Fermerlərin təşəbbüskarlığına daha çox üstünlük veriləcəyi gözlənir. İslahatlar bu kimi məsələlərdə yeniliklər gətirə bilər. Son üç ayda ət idxalı xeyli artıb. Bunlar aqrar sektorun çatışmayan cəhətləridir. Fikrimcə, aparılacaq yeni islahatlar bu sahənin də tənzimlənməsinə müsbət təkan verə bilər".

***Vidadi ORDAHALLI***

**Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində Azərbaycanın artan rolu bu gün Qərb dövlətlərinin ölkəmizlə əməkdaşlığa daha çox maraq göstərməsi ilə müşayiət edilməkdədir. Bu fonda cari ilin sonunda inşasının tamamlanması gözlənilən "Cənub Qaz Dəhlizi"nə qoşulmaq istəyən ölkələrin sayında da artım müşahidə olunur.**




# Azərbaycanın qaz strategiyasının özünü tam doğrultduğuna yeni sübutlar...

Məsələn, Macarıstan "Cənub Qaz Dəhlizi" layihəsinə qoşulmaqda maraqlı olduğunu açıqlayıb. Yayılan məlumatlardan aydın olur ki, Balkan ölkələri də tezliklə "Cənub Qaz Dəhlizi"nə qoşula bilər. Artıq Xorvatiya da "Cənub Qaz Dəhlizi" layihəsində iştirak etməkdə maraqlı olduğunu bildirib. Rəsmi Bakı isə "Cənub Qaz Dəhlizi"nə qoşula biləcək ölkələrlə əməkdaşlığa hazır olduğunu bəyan edir.

Bütün bunlar qarşıdakı dövr ərzində Azərbaycanın qaz ixracında mövqelərinin daha da güclənməsini, eyni zamanda satışdan daha çox gəlir əldə etməsini şərtləndirir. Təbii ki, bu hal, öz növbəsində, ölkə iqtisadiyyatının güclənməsinə də vacib töhfələr verəcək və bu, beynəlxalq miqyasda da açıq etiraf olunur. Məsələn, Beynəlxalq Valyuta Fondunun "Regional Economic Outlook" adlı son hesabatında Azərbaycanın qaz satışından daha çox gəlir əldə edəcəyinə diqqət çəkilir. Hesabatda vurğulanır ki, bu il Mərkəzi Asiya və Cənubi Qafqazda yerləşən neft-qaz ixrac edən ölkələrin 4%-lik böyüməsi gözlənilir. Hesabata görə, Azərbaycanda qaz hasilatının artmasının qlobal aşağı neft qiymətlərinin və xam neft hasilatının azaldılmasına təsirlərini azaldacağı gözlənilir: "Yeni qaz kəmərinin açılması, həmçinin büdcə xərclərinin iqtisadiyyata yönəldilməsi və xidmət sektorunun inkişaf etdirilməsinin davamı Azərbaycanın iqtisadi böyüməsinin əsasını təşkil edəcək". Qeyd olunur ki, belə vəziyyətdə aşağı inflyasiya Azərbaycan və regionda olan neft-qaz idxalçılarına yumşaldılmış pul siyasəti üçün meydan açıb. Qeyd edək ki, son dövrlər ərzində Azərbaycan təbii qaz ixracını artırır. Təkcə bu ilin ilk rübündə gömrük bəyannamələrinə əsasən, Azərbaycan 2,971 milyard kubmetr həcmində təbii qaz ixrac edib. Bu həcmdə təbii qazın dəyəri 425,389 milyon dollar təşkil edib. Bu ilin yanvar-mart ayları ərzində ixrac edilən təbii qazın miqdarı ötən ilin müvafiq dövründən 3,2 dəfə, dəyəri isə 2,5 dəfə artıb. Hesabat dövründə təbii qazın Azərbaycanın ümumi ixracında payı 9,49% olub. Amma ilin sonunda "Cənub Qaz Dəhlizi"nin işə düşməsilə bağlı olaraq təbii qaz satışının həcmi və müvafiq olaraq gəlirlərinin də əhəmiyyətli dərəcədə artması proonozlaşdırılır.

İlin ilk rübündə qazın ixrac həcminin artmasının səbəblərinə gəlincə, bu, TANAP layihəsi ilə bağlıdır. Məhz bu layihə sayəsində Azərbaycan qardaş Türkiyəyə qaz ixracı həcmini getdikcə artırır. Ümumiyyətlə, Türkiyə bu vaxtadək TANAP-la 1,5 milyard kubmetr Azərbaycan təbii qazı alıb. SOCAR-ın Sərmayələr İdarəsinin rəisi, "SOCAR Turkey"in direktorlar şurasının sədri Vaqif Əliyev bu xüsusda bildirir: "Aprelin 1-dək TANAP vasitəsilə Türkiyəyə təxminən 1,5 milyard kubmetr Azərbaycan qazı daşınıb. Aprelin 15-də isə TANAP-ın ikinci fazasında son mərhələyə başlanılıb və sistemə qaz vurulub. Boru kəmərinin nəqletmə qabiliyyəti əlavə investisiyalarla ildə 24 milyard kubmetrə, daha sonra isə 31 milyard kubmetrədək artırıla bilər".

Xatırladaq ki, TANAP-ın Avropaya qaz nəqlini nəzərdə tutan ikinci fazası üzrə tikinti işlərinin 99 faizi başa çatıb. Boru kəməri bu il "Transadriatik" (TAP) qaz boru kəmərinə birləşmək üçün hazır olacaq. Məhz bu da Azərbaycana daha böyük həcmdə qaz ixracı üçün imkanlar yaradacaq. Digər tərəfdən, Azərbaycan "Cənub Qaz Dəhlizi" ilə təkcə öz qazını satmağı planlaşdırmır. Məlumdur ki, Avropa İttifaqı Türkmənistanın da "Cənub Qaz Dəhlizi" layihəsinə qoşulması üçün müvafiq addımlar atır. Türkmənistan tərəfi də yenidən layihəyə qoşulmaqla bağlı marağını ifadə edib. Eyni zamanda, Avropa İttifaqı İranın da "Cənub Qaz Dəhlizi" layihəsinə qoşulmaq imkanlarını müzakirə etməyə hazır olduğunu bəyan edir. Tehran özü də bu xüsusda maraqlı tərəf kimi çıxış edir. Bütün bunlar o deməkdir ki, Azərbaycan qonşu ölkələrin qaz ehtiyatlarının tranzitindən də böyük miqdarda gəlir əldə edə bilər.

Təbii qazla yanaşı, ölkə neft satışından da böyük həcmdə gəlir əldə etməkdə davam edir. Hazırda neftin satış qiymətləri Azərbaycanın nəzərdə tutduğundan daha yüksəkdir. Vaqif Əliyev bu xüsusda bildirir ki, SOCAR cari ilin sonunda neftin qiymətinin artacağını gözləyir: "2019-cu ilin büdcəsində neftin qiyməti 60 dollar müəyyən edilib. Neftin qiymətinin il ərzində dəyişkən olacağını, ilin sonunda isə bir qədər artacağını gözləyirik. Neftin qiymətinin artması bizim gəlirliliyimizə müsbət təsir göstərir. Bununla yanaşı, qlobal neft-qaz iştirakçısı kimi daha pis ssenarilər və aşağı istiqamətli risklərə də hazırıq". Bütün bunlar enerji resurslarının satışından Azərbaycanın daha çox gəlir əldə edəcəyini bir daha təsdiqləyir.

***Tahir TAĞIYEV***

# Azərbaycan dövlətinin dəstəyi olmadan Rusiya azərbaycanlılarının yeni qurumu uğur qazana bilərmi...

**Frenk Elkaponinin (Füzuli Məmmədov) rəhbərliyi altında Rusiyada yaşayan azərbaycanlıların yeni diaspor təşkilatının (Rusiya Azərbaycanlıları İttifaqı) yaradılması ilə bağlı məlumat vermişdik. Qeyd edək ki, yeni yaradılan quruma münasibət birmənalı olmayıb. Təşkilatın yaradıldığı elan olunan elə ilk gündən başlayaraq sosial şəbəkələrdə bu yöndə qızğın polemikalar nəzərə çarpdı.**



Hətta bir vaxtlar Rusiyada fəaliyyət göstərən ən böyük diaspor təşkilatımız olan və sonra fəaliyyəti dayandırılan Ümumrusiya Azərbaycanlıları Konqresinin (ÜAK) rəhbərliyində təmsil olunmuş şəxslər yeni yaradılan təşkilatın heç də Rusiyada yaşayan bütün soydaşlarımızın mövqeyini əks etdirmədiyinə dair fikirlər bildirdilər. Təbii ki, yeni yaradılan qurumda təmsil olunan şəxslər bu ittihamlarla razılaşmadılar. Onlar da yeni təşkilatla bağlı xoş fikir səsləndirməyənləri fəaliyyətsizlikdə, şəxsi maraqlar kontekstindən çıxış etməkdə günahlandırdılar. Ancaq bizim bu vəziyyətlə bağlı marağımızı cəlb edən başqa detallar da oldu. Kənardan etdiyimiz müşahidələr göstərdi ki, yeni yaradılan quruma, nədənsə, Azərbaycan rəsmi dairələrinin dəstəyi hiss edilmir. Ən azından, bu tip tədbirlərdə əlaqədar dövlət qurumlarının nümayəndələrinin iştirakı olur. Nədənsə, yeni təsis edilən qurumla bağlı biz deyilən halı müşahidə etmədik. Hətta Diaspora ilə İş üzrə Dövlət Komitəsinin (DİDK) Rusiyada yaşayan azərbaycanlıların yeni diaspor təşkilatının yaradılmasına bildirdiyi münasibətdən də mövzuya bir qədər ehtiyatlı yanaşıldığı hiss edilir.

Dövlət Komitəsinin Mətbuat xidmətinin rəhbəri Vəsilə Vahidqızı deyib ki, dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar və onları birləşdirən təşkilatlar son dövrlərdə fəaliyyətlərini mərkəzləşdirməyə və kollegial qərarlar qəbul etməyə üstünlük verirlər. O vurğulayıb ki, ötən ildən başlayaraq bir sıra ölkələrdə azərbaycanlıların koordinasiya şuralarının yaranması və Diasporla İş üzrə Dövlət Komitəsinin rəhbər şəxslərinin də onların yığıncaqlarına dəvət olunması təqdirəlayiqdir: "Hazırda yaşadığı ölkədən asılı olmayaraq, soydaşlarımızın təşkilatlanması prosesi davam edir və genişlənir. Bu günlərdə Rusiyada yaşayan azərbaycanlıların və bir sıra diaspor təşkilatlarının yeni bir qurumda birləşməsi də soydaşlarımızın bu yöndə olan təşəbbüslərindən biri kimi qiymətləndirilir".

Hər halda, bu münasibətdən də görünür ki, yeni qurumun yaradılmasını əlaqədar dövlət qurumu soydaşlarımızın öz təşəbbüsü kimi dəyərləndirir. Analogiya aparsaq görərik ki, elə Rusiyanın özü və başqa ölkələrdə yaradılan böyük diaspor təşkilatlarının təqdimatında biz dövlət qurumlarının bir qədər isti münasibətinin şahidi olmuşuq. Belə olan təqdirdə, maraqlı suallar meydana çıxır. Ola bilərmi ki, yeni qurum Azərbaycan hakimiyyətinin iradəsindən kənar yaradılıb? Ümumiyyətlə, Azərbaycan hakimiyyətinin dəstəyi olmadan Rusiyada bütün soydaşlarımızı öz ətrafında birləşdirə bilən bir təşkilat yaratmaq olarmı?

Diaspor sahəsində böyük təcrübəsi olan Dünya Azərbaycanlıları Konqresi Mərkəzi İcra Aparatının rəhbəri Samir Adıgözəlli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, onun özünün də bu məsələyə münasibəti birmənalı deyil: "Çox təəssüf edirəm ki, yeni yaradılan təşkilatla bağlı hansısa tənqidi fikir səsləndirən və ya nəyisə orada görmək istəmələri ilə bağlı təklif verən şəxslərin mövqeyi Füzuli Məmmədovun tərəfdarları tərəfindən süngü ilə qarşılanır. Neçə gündür bunu sosial şəbəkələrdə gedən polemikalardan müşahidə edirəm. Bu təşkilatın yaradılacağı ilə bağlı piar işləri xeyli müddətdir aparılırdı. Düzünü deyim ki, mən həmin pafosun müqabilində nəticənin ortaya qoyulduğunu görmədim. Bundan əlavə, bu təşkilat bütün Rusiyada yaşayan soydaşlarımızı öz ətrafında birləşdirdiyini iddia edirsə, niyə dövlətin yüngül də olsa izi, xoş münasibəti orada hiss edilmir? Axı biz bilirik ki, Azərbaycan dövləti daim sağlam diaspor quruculuğu işlərini alqışlayıb və bacardıqca buna dəstək verib. Bununla yanaşı, mən yeni təşkilatın vitrinində heç Rusiyadakı tanınmış simaları da görmədim. Sanki kəmiyyət xatirinə zala çoxlu sayda adam yığılmışdı".

S.Adıgözəllinin sözlərinə görə, heç Rusiyadakı səfirliyimizin nümayəndəsinin də məlum tədbirdə görünməməsi bu buarədə ciddi düşünməyə əsas verir: "Bəli, şəxsən mən təcrübəmə əsasən deyə bilərəm ki, bu cür işlər dövlətin bəlli qurumları ilə məsləhətli şəkildə aparılmalıdır. Hər halda, bu, Rusiyada hansısa ticarət obyekti açmaqla eyniləşdirilə bilməz. Görünür, bu dəstək yeni təşkilatın əsl məram və məqsədi tam bəlli olmadığı üçün ifadə edilməyib. Rusiya elə bir ölkədir ki, orada kimsə təkbaşına nəsə edə bilməz. Azərbaycan diasporunun ən güclü olduğu yer Rusiyadır. Orada hansısa bir diaspor təşkilatını yaratmaq olardı. Ancaq bu miqyasda işlə manipulyasiya etmək, məncə, yolverilməzdir. Mənim mövqeyimdən belə çıxmasın ki, diaspor quruculuğunun, soydaşlarımızın bir yerə toplaşmasının əleyhinəyəm. Bu, məqsədli, məramlı, məsləhətli şəkildə aparılmalıdır. Çünki biz zaman-zaman görmüşük ki, Rusiyadakı Azərbaycan diasporunun üzərindən ölkəmizə hətta siyasi təzyiqlər edilib. Bunlar o qədər də keçmişə təsadüf etmir. Buna görə də ehtiyatlı olmalıyıq. Bu cür həssas məsələdə dövlətin dəstəyi, xeyir-duası mütləq olmalıdır. Hər halda, belə məsələdə kimlərinsə maraqlarının deyil, ölkəmizin maraqlarının hesablanmasını önə çəkməliyik. Bu cür məsələlərdə özfəaliyyət ola bilməz. Yaxşı pul xərcləməyi bacarmaq heç də yaxşı diaspor lideri olmaq anlamına gəlmir. Məndə olan məlumata görə, yeni qurum tərəfindən müəyyən dövlət instansiyalarına dəvətlər göndərilib. Bizim iştirakımız, demək ki, məqsədəuyğun hesab edilməyib. Ancaq, "bizim öz işimizdir" deyib belə ağır bir missiyanı dəstəksiz həyata keçirməyi də doğru saymıram".

***Məhəmmədəli QƏRİBLİ***

# Ermənistan Avrasiya İqtisadi Birliyinin sədrliyini narahatlıqla qəbul edib...

**Rusiya Baş naziri Dmitri Medvedyev İrəvana səfər edib. Bildirilir ki, Medvedyev İrəvanda Avrasiya İttifaqı Hökumətlərarası Şurasının iclasında iştirak etmək məqsədilə İrəvana gəlib. Medvedyevin İrəvanda iki gün qalacağı deyilir. O burada Avrasiya İttifaqına üzv ölkələrin baş nazirləri ilə ikitərəfli görüşlər də keçirəcək.**



*"Medvedyev bağlı qapılar arxasında Paşinyanı daha detallı başa salıb"*

## **Elşən Mustafayev:** *"Bununla, eyni zamanda, Ermənistana bir xəbərdarlıq da etmiş olurlar ki, sədrlikdən istifadə edib hansısa qeyri-standart addımlar atmaq olmaz"*

Qeyd edək ki, bundan öncə Avrasiya İttifaqı Hökumətlərarası Şurasının iclası Almatıda keçirilib.

Ermənistanın Baş naziri Nikol Paşinyan İrəvanda səfərdə olan rusiyalı həmkarı Dmitri Medvedyevi evində qarşılayıb. Ermənistan KİV-i xəbər verir ki, tərəflər qarşılıqlı əlaqələrdən və Avrasiya İqtisadi Birliyinə üzvlükdən danışıblar.

Çox maraqlıdır ki, Medvedyevlə Paşinyanın görüş kadrlarının nümayişində hər iki şəxs tez-tez "ümid edirik ki, Ermənistanın sədrliyi çox uğurlu olacaq" ifadəsini işlədib. Sanki Ermənistanın sədrliyinin uğurlu olub-olmayacağından narahatlıq var. Hər halda, maraqlıdır, tərəflər bu fikri niyə xüsusilə vurğulayıb üzərində dayanırlar?

**Azərbaycan Milli İstiqlal Partiyasının funksioneri Elşən Mustafayev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bunun cavabı bir sıra amillərlə bağlıdır:** "Bilirsiniz ki, Paşinyan hakimiyyətə gələndən sonra atdığı addımları ilə özü barədə diletant bir siyasətçi, ölkə rəhbəri imicini yaradıb. Bu gün dediyini sabah danır, gözlənilməz reveranslar edir. Buna görə də Medvedyev sanki onun boynuna məsuliyyət qoymaq üçün həmin ifadəni işlədər, hətta elə şərait yaradır ki, Paşinyanın özü də onu təsdiqləmiş olsun. Bunun başqa bir səbəbi Paşinyanın KTMT ilə bağlı ortaya qoyduğu mövqe ilə bağlıdır. İş burasındadır ki, Avrasiya İttifaqında təmsil olunan ölkələrin, demək olar ki, əksəriyyəti KTMT-də təmsil olunur. Paşinyanın həmin qurumla bağlı atdığı addımlar üzv ölkələrin də xoşuna gəlmədi. Hətta bununla bağlı Paşinyana açıq iradlar da bildirildi. Nazarbayev, Lukaşenkonun mediaya verdiyi açıqlamaları bu qəbildən saymaq olar. Bununla, eyni zamanda, Ermənistana bir xəbərdarlıq da etmiş olurlar ki, sədrlikdən istifadə edib hansısa qeyri-standart addımlar atmaq olmaz. Bunlar hələ açıq formada verilən mesajlardır. Əminliklə demək olar ki, Medvedyev bağlı qapılar arxasında Paşinyanı daha detallı başa salıb və öz xəbərdarlığını da edib. Bundan əlavə, Avrasiya İttifaqına üzvlük müəyyən öhdəliklər də yaradır. Yəni Ermənistanın hansısa iri layihələrə üzv olması, bu yöndə ölkələrlə danışıqlar aparması Avrasiya İttifaqının maraqlarına cavab verməlidir. Onsuz da Ermənistan elə vəziyyətə özünü salıb ki, ölkələr onunla səmərəli əməkdaşlıq etməyə zərurət görmürlər. Çünki tamamilə blokada şəraitindədir. İstənilən halda, iqtisadi blokadanı yarmaq üçün müəyyən çabalar edir. Buna görə də Medvedyev Paşinyana bir qədər ağıllı davranmağı da tövsiyə etmiş olub. Paşinyan da fikri təsdiqləməklə, götürdüyü öhdəliyə əməl edəcəyinə söz verib".

***Məhəmmədəli QƏRİBLİ***

# "Meydan TV"nin xaricdə gizli sahibləri barədə ifşaedici faktlar açılır...

**Azərbaycanda yayımı məhkəmə qərarı ilə qadağan edilən, mərkəzi qərargahı ölkə xaricində olan "Meydan TV" adlı KİV ətrafında maraqlı proseslər cərəyan etməyə başlayıb. Sözügedən media qurumunun rəhbəri Emin Milli öz "Facebook" hesabında post yazaraq tutduğu vəzifədən istefa verdiyini bildirib:**




"Əlvida, Meydan TV! Mən hesab edirəm ki, hakimiyyətdə də, müxalifətdə də, mediada da, QHT-lərdə də olan rəhbərlər 20-30 il ərzində eyni vəzifədə qalmamalıdırlar.

Heç 5 ildən çox eyni vəzifədə qalmaq məsləhət deyil. Bu liderlər öz yerlərini daha gənc, daha bilikli, daha çevik kadrlara verib getmək üçün özlərində cəsarət tapmalıdırlar…".

Maraqlıdır ki, "Meydan TV"nin Azərbaycana təzyiq etmək istəyən xarici dairələrin əlində bir vasitəyə çevrildiyi barədə çoxlu sayda fikir bildirilib. Ancaq bir vaxtlar həmin KİV-lə yaxından əməkdaşlıq etmiş, müxalif mövqeli yazar, hazırda mühacirətdə yaşayan Əli Əkbərin bu xüsusdakı etirafları daha maraqlı və təsirlidir.

İsveçrədə yaşayan azərbaycanlı mühacir yazıçı Ələkbər Əliyev Emin Millinin indi yox, 1 il öncə "Meydan TV"nin rəhbərliyindən uzaqlaşdığını bildirib: "Bunun çoxdan baş verdiyini mən də, bizim dostlarımız da bilirdik. Ancaq bunu yaymaq, ictimailəşdirmək bizim işimiz deyil deyə, bu haqda danışmırdıq. Bir ilə yaxındır biz bilirdik ki, Emin Millinin "Meydan TV" ilə bir əlaqəsi qalmayıb. Tək mən yox, çox adam bunu bilirdi. Ona görə də Azərbaycanda bütün saytlar bunu yeni bir xəbər kimi yazanda mənə bir qədər gülməli gəldi. Sosial şəbəkələrdə ajiotaj yarandı. Mən Eminin niyə uzaqlaşdığını bilmirəm. Ancaq bildiyim odur ki, artıq bu layihə reysə oturub, orada yenilik üçün heç bir meydan yoxdur. Ona görə də E.Milli oradan uzaqlaşmağa qərar verib. Mənim eşitdiyim interpretasiya budur. Yəni Emin deyir ki, bunu yaratdım, bu mənim əsərimdir, ancaq bu layihə indi öz həyatını yaşayır, mənə ehtiyac yoxdur. Bu layihənin Azərbaycanla heç bir bağlantısının qalmaması da Emini narahat etmiş ola bilər. Çünki layihənin rəhbərliyi azərbaycanlılardan ibarət deyil".

Ə.Əliyev onu da vurğulayıb ki, "Meydan TV", əvvəldən bəyan etdiyi kimi, xalqın mediası olmadı, xalqdan maliyyələşməyi bacarmadı: "Azadlıq" radiosu, BBC, "Amerikanın səsi" kimi media orqanlarının adı üstündədir, onlar Konqresdən, ingilis hökumətindən filan maliyyələşirlər. Burada bir sirr yoxdur. Bu media orqanlarında çalışan redaktorlar, jurnalistlər də xaricilər üçün çalışdıqlarını, onlardan maaş aldıqlarını danmırlar. "Meydan TV"nin iddiası isə xalqın saytı, televiziyası olmaq idi. Beləcə, tənqidi, müxalif yönümlü xəbər portalı kimi fəaliyyətə başladı. İdeya da belə idi ki, bütün azərbaycanlılar birləşsin, bu layihəni dəstəkləsinlər.

Bu, hər kəsin, hamımızın saytı olsun. Eminin ideyası idi bu. Görünür, nələrsə düz getmədi, Eminin istədiyi kimi olmadı. "Meydan TV" təzə fəaliyyətə başlayanda biz də orada idik, hamımız Eminlə birgə başladıq. Sonra Eminə təzyiqlər oldu, Azərbaycandakı QHT mafiyası, qrantyeyənlər, dinozavrlar Eminə çox açıq şəkildə təzyiq etdilər. O da açıq şəkildə bizə məsələni anlatdı. Ona təzyiq etdilər və hətta təhqiramiz ifadələr işlətdilər ki, bu filankəsləri oradan rədd elə. Yoxsa, bizim QHT mafiyasının dəstəyini görməyəcəksən. Sənin bütün qrant kanallarını bağlayarıq. Haqqında yazarıq, səni xaricilərə şikayət edərik.

Emin də bizə dedi ki, dostlar, siz kültür adamlarısınız, hətta hökuməti tənqid etsəniz də, bunu öz üslubunuzda edirsiniz. Burada isə İlham Əliyevi istefaya çağıran bir üslub olmalıdır, xalqı inqilaba səsləməliyik. Hökumətə yüklənmək lazımdır, yoxsa dəstək olmayacaq. Ona görə də xoş getdiniz. Biz də dedik axı biz bundan sonra üslubumuzu dəyişib "vidadiləşə" bilmərik, o zaman Vidadi də yox idi. (Vidadi İsgəndərlini nəzərdə tutur). Bizim öz tərzimiz var, imicimiz var. Ona görə də Eminlə bizimki alınmadı. Qrantyeyənlərin təzyiqi ilə Emin bizi "Meydan TV"dən rədd etdikdən sonra öncədən bəyan edilən xalqın layihəsi, xalqın maliyyəsi söhbəti də unuduldu".

Ə.Əliyevin sözlərinə görə, "Meydan TV" hazırda Qərb dövlətlərinin idarəsi altındadır: "Sayt Qərb fondlarının tabeliyinə keçdi, bu günə qədər də yüksələn xətlə, yaxşı maliyyə imkanları ilə fəaliyyət göstərir. Saytın Azərbaycanla heç bir orqanik bağı yoxdur".

Çox maraqlıdır ki, bənzər fikirlər ölkəmizdəki media ekspertləri, siyasilər tərəfindən səslənəndə "Meydan TV" aşiqləri bunu hakimiyyətin qarayaxması kimi dəyərləndirirdilər. Buyurun, indi bu sözləri müxalif mövqeli və həmin media qurumu ilə yaxından əməkdaşlıq etmiş bir şəxs deyir. Ə.Əkbərin bu səmimi etiraflarından daha hansı nəticələri çıxara bilərik?

Media eksperti Azər Həsrət "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, "Meydan TV" ilə bağlı səslənən bu etiraflar bizi dərindən təəccübləndirmədi: "Biz bunu dəfələrlə demişik. Bir daha bildirirəm ki, həmin media qurumunun Azərbaycan dövləti və xalqına heç bir formada dəxli yoxdur. Layihənin başında E.Milli kimi bir adamın durması heç də o anlama gəlmir ki, həmin KİV Azərbaycan xalqının mənafelərini qorumaq yolunu tutub. İddia etdikləri insan haqları və demokratiya uğrunda mübarizə, əslində, pərdələnmək üçün bir vasitə olub. Onların xüsusilə də vətəndaşları özlərindən çıxara biləcək məzmunlu paylaşımlar etmələri də bizim diqqətimizi cəlb edirdi. Ona görə də həmişə demişik ki, "Meydan TV" destruktivdir, məqsədi xoş deyil, Azərbaycanda qarşıdurma yaratmağa can atırlar. Bu səbəbdən də həmin qurumda normal, balanslı media fəaliyyəti göstərmək istəyən istənilən jurnalistlə tez bir zamanda yolların ayırıblar. Həmin adamların yazıları və çəkilişləri saytda yayımlanmayıb. Bunları biz dəqiqliyinə qədər bilmişik. İndi də özlərinə yaxın olan bir adamın belə etiraflar etməsi, əlbəttə ki, bizi təəccübləndirmir. Bununla bizim dediklərimiz bir daha təsdiqini tapmış olur".

**Azər Həsrət hesab edir ki, xüsusilə də "Meydan TV"yə bir ümid işığı kimi baxanlar bu etirafları diqqətlə oxumalıdırlar: "Problemlərinin çarəsini onlarda axtaranlar bir daha düşünsünlər. Çünki insanların problemlərindən "Meydan TV" hər zaman sui-istifadə edib. Əslində, onlar insanların problemlərinin həllində deyil, həmin vəziyyətin daha da dərinləşməsində maraqlı olublar ki, bundan xaricdəki bəzi qüvvələr Azərbaycana təzyiq aləti kimi istifadə edə bilsinlər".**

***Məhəmmədəli QƏRİBLİ***

# Prezident olanda Sarkisyana "çest" verən partiya üzvləri bir-bir üzünə durmağa başlayıb...

*Ermənistanda 10 il hakimiyyətə rəhbərlik edən Serj Sarkisyan qüvvələri 1 ilin içində Paşinyanın qarşısında aciz duruma düşüb…*

**"Joğovurd" qəzetinə istinadən: Ermənistan parlamentində 5 faizlik həddi aşa bilməyən "Respublika" partiyasında parçalanma baş verir. Artıq partiyanın sıralarından çıxmaq üçün 7 nəfər istefa ərizəsi yazıb.**

Vəziyyət o həddə çatıb ki, bu dəfə partiyanın sədri Ermənistanın 3-cü prezidenti Serj Sarkisyanla partiyanın sədr müavini, sabiq Müdafiə naziri Viqen Sarkisyan arasında fikir ayrılıqları başlayıb. Viqen Sarkisyan Serj Sarkisyanı ikili siyasətdə və eyni zamanda büdcə xərclərinin qeyri-ünvansız xərclənməsində günahkar hesab edir. Demək olar, partiya rəhbərləri arasında ziddiyyət pik həddə çatıb. Necə deyərlər, bıçaq sümüyə dayanıb.

1 il bundan öncə Serj Sarkisyan yerli mətbuatın "özündən sonra partiyanın sükanı arxasında kimi görürsən" sualına cavabında birmənalı olaraq bildirirdi ki, Viqen Sarkisyanı. Ancaq bu gün həmin o ab-havadan əsər-əlamət qalmayıb. Son vaxtlar ölkə daxilində elə bir mühit formalaşıb ki, bu partiyanın ən fəal üzvləri, keçmiş məmurlar və deputatlar "Respublika"çıyam deməyə ehtiyat edir. Partiyanın gənclər təşkilatı da tam heyətlə istefa verdiklərini bəyan etdi. Hətta "Respublikaçı"lar istintaq komitəsinə çağırılmaqdan ehtiyat edərək, ölkəni birdəfəlik tərk etməyə üstünlük verirlər. Onlar bunu bacararsa, bu onlar üçün əlavə olaraq böyük avantajdır. Çünki son 6 ayda Serj Sarkisyanın ətrafından 17 nəfər həbs edilib. Bir çoxları isə ölkəni qeyri-qanuni tərk etdiyinə görə interpol tərəfindən axtarışdadır. Onların arasında keçmiş müdafiə nazirinin müavini, "qəssab" ləqəbli general-leytenant Manvel Qriqoryanın da adı var. Hər şey göz qabağındadır. Serj Sarkisyan qardaşlarının canını istintaqdan azad edə bilmirsə, digərlərinin həyatı onun üçün maraqlı ola bilməz. Partiyanın gənc daşıyıcıları partiyadaxili inamsızlığı hiss edərək, kütləvi şəkildə öz vəsiqələrini yandırır və yaxud, ümumiyyətlə bildirirlər ki, onlara bu "Respublika" partiyasının vəsiqələrini özlərinin istəyi olmadan, zorla paylayıblar. Özlərinin iş yerlərini qorumaq məqsədilə artıq təhsil və səhiyyə nazirliyinin bir qrup əməkdaşı "Respublika" partiyasının vəsiqələrini yandırmaq aksiyasına başlayıb.



***Aydın EYVAZOV***
***AMEA Qafqazşənaslıq İntitutunun Ermənişünaslıq şöbəsinin əməkdaşı***

# Ötən il Azərbaycana gələn turistlərin sayı artıb, gəlir isə azalıb, maraqlı prosesin səbəbləri...

**Azərbaycanda qeyri-neft sektorunun inkişaf etdirilməsi başlıca məqsədlərdən biridir. Bunnunla bağlı vacib sahələrdən biri də turizmdir. Son 10 ildə müxtəlif beynəlxalq səviyyəli idman yarışlarının və mədəniyyət-incəsənət tədbirlərinin Azərbaycanda keçirilməsi ölkənin turizm potensialının təqdim olunmasında mühüm rol oynayıb.**




*"Turistlərə göstərilən servisin səviyyəsi artırılsa, qiymətlər bir qədər aşağı salınsa, o zaman mənzərə fərqli ola bilər"*

Turizm sektorunun hökumət üçün əsas prioritetlərdən biri olmasını 2016-cı ildə bu sahənin inkişafına dair ayrıca "Yol xəritəsi" hazırlanması da təsdiqləyir. Mərkəzi Bankın ödəmə balansı ilə bağlı statistikasına baxdıqda məlum olur ki, 2010-cu ildən başlayaraq Azərbaycanın xarici turizmdən əldə etdiyi gəlirləri əhəmiyyətli dərəcədə artıb.

Dövlət Statistika Komitəsinin əsaslı kapital qoyuluşu ilə bağlı statistikası da göstərir ki, 2009-cu ildən etibarən turizm sektoruna investisiyalar artmağa başlayıb və son ildə bu sektora yönəldilən sərmayənin ümumi həcmi 2 milyard dollara yaxınlaşıb. Həmin vəsaitlər xüsusilə də ölkədə dağ-xizək komplekslərinin, müxtəlif ərazilərdə otel və restoran şəbəkəsinin tikintisinə sərf olunub.

Ancaq bu istiqamətdə görülən bir sıra işlərə rəğmən, 2017-ci illə müqayisədə 2018-ci ildə

## *Çingiz İsmayılov: "Azərbaycana gələn turistlərin maddi imkanları aşağı olduğu üçün, bu, gəlirlərin azalmasına öz təsirini göstərir"*

Azərbaycanın xarici turizm gəlirlərində birdən-birə 13 faizə yaxın azalma qeydə alınıb. Məsələ ondadır ki, 2017-ci ildə beynəlxalq turizm xidmətlərindən ölkəyə daxilolmaların həcmi 3 milyard dollardan artıq olub. Ancaq ötən il həmin göstərici 2.63 mlrd. dollara qədər azalıb. Yəni xarici turizmdən gələn gəlirlər Azərbaycanda 350 milyon dollara yaxın azalıb. Maraqlı məqamlardan biri budur ki, 2018-ci ildə Azərbaycana gələn turistlərin sayı əvvəlki ilə nisbətən 6 faizə yaxın artsa da, turizm gəlirlərində 13 faizlik azalma qeydə alınıb.

Gələn turistlərin sayının artdığı halda, gəlirlər niyə azalıb?

**Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən turizm sahəsi üzrə ekspert Çingiz İsmayılovun sözlərinə görə, bunun bir neçə səbəbi ola bilər:** "Məsələ ondadır ki, ölkəyə gələn turistlər müxtəlif imkanlara malikdirlər. Turist var gəlib beşulduzlu oteldə qalır. Eləsi də var ki, otelə getmir, hansısa evdə qalır. Yaxud da bölgələrə elə də getmir. Bütün bunlar gələn turistin maddi imkanından asılıdır. Ola bilər ki, 100 nəfər imkanlı turist gəlsin və bahalı servislərdən istifadə etsin. Bu zaman ölkəyə daxil olan gəlirlər çox olur. Bəzən də elə olur ki, ölkəyə gələn turistlərin sayı artır, amma bundan daxil olan gəlirlərin həcmi azalır. Burada gələn turistlərin maddi durumu rol oynayır. Turistlərin sayı artırsa, amma bundan daxil olan gəlirlər azalırsa, məsələnin səbəbləri geniş təhlil olunmalıdır. Araşdırılmalıdır ki, turistlər 2017 və 2018-ci illərdə hansı otellərə üstünlük veriblər. Görünən odur ki, Azərbaycana gələn turistlərin maddi imkanları aşağı olduğu üçün, bu, gəlirlərin azalmasına öz təsirini göstərir. Bu o deməkdir ki, maddi imkanı bir qədər aşağı olan turistlərin sayında artım var. İqtisadi imkanı aşağı olan turistlər ucuz yerlərdə istirahət edirlər. Bəzən də elə olur ki, gələn turistlər bahalı suvenir və digər əşyalar almırlar. Bunun özü də turizmdən gələn daxilolmaların azalmasına öz təsirini göstərir. Bütün hallarda, turizmlə bağlı Azərbaycanda trendləri müəyyən etmək üçün geniş təhlillər aparılmalıdır. Əfsuslar olsun ki, bununla bağlı Azərbaycanda analitik mərkəzlər yoxdur. Hansı ki, belə mərkəzlər olsa, bunun əsl səbəbləri ortaya çıxar, regiondakı rəqabət mühiti düzgün dəyərləndirilər".

Ç.İsmayılov onu da qeyd etdi ki, Azərbaycanda turistlərə göstərilən servisin səviyyəsi artırılsa, qiymətlər bir qədər aşağı salınsa, o zaman mənzərə fərqli ola bilər: "Yəni gələn turistlərin sayı artacaq və münasib qiymətlərə görə daha çox pul xərcləyəcəklər. Gürcüstana ilbəil gələn turistlərin sayı artır. Bunun bir səbəbi Qara dənizə çıxış imkanı, Avropaya yaxınlıqla bağlıdırsa, digər səbəbi servis səviyyəsi və qiymətlərin münasibliyi ilə əlaqəlidir. Baxın, Rusiyanın Gürcüstanla münasibətləri yaxşı deyil. Ancaq son illər Rusiyadan Gürcüstana gələn turistlərin sayı artır. Hər bir ölkə çalışır ki, xarici turisti öz ölkəsinə cəlb etsin. Ona görə də regionda rəqabət gedir. O üzdən, bunun səbəbləri dərin araşdırılmalıdır. Gürcüstana 6 milyon nəfər turist gəldiyi halda, Azərbaycana gələn turistlərin sayı 2 milyondur. Məlum olan odur ki, bizdə bu sahədə görülləsi işlər çoxdur".

***Vidadi ORDAHALLI***

# Qida Təhlükəsizliyi Agentliyi yeni səlahiyyətlərlə köhnə problemlərin üstünə yeriyəcək...

**Məlum olduğu kimi, Prezident İlham Əliyev "Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019-2025-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb.**




*"QTA, ilk olaraq, ictimaiyyətin inamını qazanmalıdır"*

Sərəncamda qeyd edilir ki, ölkə əhalisinin təhlükəsiz və keyfiyyətli qida məhsulları ilə təmin edilməsi, qida təhlükəsizliyi sisteminin səmərəliliyinin və şəffaflığının artırılması, onun beynəlxalq tələblərə uyğunlaşdırılması məqsədilə "Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019-2025-ci illər üçün Dövlət Proqramı" təsdiq edilsin.

Qida Təhlükəsizliyi Agentliyinə bu sərəncamla təsdiq edilən Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasını əlaqələndirmək; həmin Dövlət Proqramında qeyd olunan tədbirlərin, beynəlxalq təcrübə nəzərə alınmaqla, əsas icra indikatorlarını üç ay müddətində müəyyən etmək; Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının gedişi barədə ildə bir dəfə

## *Eyyub Hüseynov: "QTA normal işləsə və əsasnamənin qarşıya qoyduğu tələbləri yerinə yetirə bilsə, bu sahədə problemlər xeyli azalar"*

Azərbaycan Prezidentinə məlumat verməkd tapşırılıb.

Bununla yanaşı, sərəncama əsasən, QTA-ya bəzi yeni səlahiyyətlər verilib. Belə ki, Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının monitoringini və qiymətləndirilməsini Qida Təhlükəsizliyi Agentliyinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirəcək.

Qeyd edək ki, QTA Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair "Strateji Yol Xəritəsi"ndə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini təmin etmək, qida təhlükəsizliyinə nəzarət sistemini təkmilləşdirmək, bu sahədə şəffaflığı daha da artırmaq məqsədilə yaradılıb. Qurum 1 yanvar 2018-ci ildən fəaliyyət göstərir.

Maraqlıdır, QTA-ya yeni səlahiyyətlərin verilməsi bu qurumun fəaliyyətində, qida təhlükəsizliyi ilə bağlı proseslərdə özünü necə göstərəcək? Ekspertlərin bununla bağlı gözləntiləri nədir?

**Məsələyə münasibət bildirən Azad İstehlakçılar Birliyinin rəhbəri Eyyub Hüseynovun sözlərinə görə, sərəncam mükəmməldir, amma QTA-nın bundan nə dərəcədə səmərəli istifadə edəcəyini indidən demək çətindir:** "Sərəncamın həyata keçirilməsi vətəndaşların həyatında özünü göstərməlidir. Bu da QTA-nın nə dərəcədə səmərəli fəaliyyət göstərməsindən asılı olacaq. Ölkə Pezidentinin qida təhlükəsizliyi ilə bağlı son sərəncamı çox əhəmiyyətlidir. Ancaq gəlin görək sərəncamdan irəli gələn vəzifələri QTA yerinə yetirməyə hazırdırmı? Çox təəssüflər olsun ki, sözügedən qurum barədə bunları demək çətindir. Problem ondadır ki, bu qurum cəmiyyətlə iş apara bilmir. Qida təhlükəsizliyi ilə bağlı proqramdan irəli gələn vəzifələr yerinə yetirilə bilər. O şərtlə ki, bunu yerinə yetirən qurum ictimaiyyətin dəstəyini alsın. Hələlik QTA-nı buna hazır görmürəm. Çünki QTA AİB-lə əməkdaşlıqda maraqlı deyil. Hazırda qida təhlükəsizliyi ilə bağlı qanun müzakirə olunur. Bununla bağlı heç bir ictimai müzakirələr keçirilmir. QTA bilməlidir ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra bu sahədə çoxsaylı proqram həyata keçirilib. QTA-nın ölkə Prezidenti tərəfindən təsdiq olunan əsasnaməsi çox mükəmməldir. QTA normal işləsə və əsasnamənin qarşıya qoyduğu tələbləri yerinə yetirə bilsə, bu sahədə problemlər xeyli azalar. Həmçinin, Azərbaycanın kənd təsərrüfatı məhsullarının ixrac qabiliyyəti yüksələr. Nəticədə Azərbaycan bundan böyük gəlirlər əldə edəcək. Bununla əlaqədar QTA, ilk olaraq, ictimaiyyətin inamını qazanmalıdır. Yalnız o halda gözləntilər böyük ola bilər və verilən yeni səlahiyyətlər prosesdə effektli rol oynayacaq".

***Vidadi ORDAHALLI***

**Ölkəmizin əsas strateji müttəfiqi sayılan Türkiyə ilə ABŞ arasında S-400 zenit raket kompleksi ilə bağlı ziddiyyətlər hələ də çözülmür. Proseslərin gedişi isə bu qənaətə gəlməyə əsas verir ki, son nəticədə Rusiya və Türkiyə hərbi müstəvidə bir-birilə daha çox yaxınlaşacaq. Eyni zamanda, tərəflərin birgə yeni silahlar istehsalı üçün də hazırlıqlar görməsinə dair məlumatlar yayılır.**

# Türkiyə-Rusiya hərbi yaxınlaşması Azərbaycana əlavə imkanlar açır - iyul-avqust aylarında fərqli vəziyyət yaranacaq

Ekspertlər isə bu prosesin nəticə etibarı ilə Azərbaycana da təsir göstərə biləcəyini vurğulayır. Çünki Azərbaycanın hər iki ölkə ilə hərbi sahədə də əlaqələri çox yüksək səviyyədədir. Bu mənada, Azərbaycan Rusiya və Türkiyənin birgə silah istehsalı zamanı ərsəyə gələcək yeni hərbi texnikaların alışında da hansısa çətinlik yaşamayacaq. Amma işğalçı Ermənistana gəlincə, Türkiyənin bu ölkəyə münasibəini nəzərə alsaq, İrəvan çətin ki, həmin hərbi texnikaları əldə edə bilsin.

İndilikdə isə proseslər, yuxarıda qeyd olunduğu kimi, Rusiya və Türkiyənin birgə yüksək hərbi texnologiyalar istehsalına doğru gedir. Çünki S-400 zenit raket kompleksi ilə bağlı qalmaqallar ABŞ və Türkiyə arasında yaşanan ziddiyyətin daha da dərinləşməsinə səbəb olmaqdadır. Bu xüsusda Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan və ABŞ prezidenti Donald Tramp arasında telefon danışığının da nəticəsi olmayıb. Ərdoğan Trampa Rusiyadan alınacaq S-400 zenit-raket kompleksləri ilə bağlı birgə işçi qrupun yaradılması təklif edib. Amma ABŞ S-400-lərdə bağlı mövqeyindən geri çəkilməyib. Ankara da buna rəğmən həmin raketlərin alınacağını bəyan edib. Türkiyə Milli Müdafiə Nazirliyi bildirir ki, S-400-lərin Türkiyəyə tədarükü iyun və iyul aylarında həyata keçiriləcək. Rusiyanın "Rosoboroneksport" dövlət şirkətinin baş direktoru Aleksandr Mixeyev məhz belə bir vaxtda açıqlama verib ki, Türkiyə S-400 anlaşmasından sonra Rusiyanın digər silahları ilə də maraqlanır. O bildirib ki, Rusiya ilə Türkiyə arasında müdafiə sahəsində əməkdaşlıq sürətlə irəliləyir: "Rəqiblərimizin əlaqələrimizə müdaxilə cəhdlərini isə uğurla dəf edirik". A.Mixeyev diqqətə çatdırıb ki, xüsusilə inkişaf etmiş təyyarə və helikopter sistemləri, zirehli maşın hissələri və təmin edilən silahların satış sonrası xidmətləri kimi sahələrdə Türkiyə ilə ortaq layihələr var. Mixeyev S-400 zenit-raket komplekslərinin istehsalının Türkiyədə qismən həyata keçirilməsi mövzusunda razılaşmanın təmin edildiyini söyləyib. Şirkət rəhbəri 30 aprel-3 may tarixlərində İstanbulda keçiriləcək 14-cü Beynəlxalq Müdafiə Sənayesi Sərgisində Rusiya və Türkiyənin mühərrik, təyyarə və



helikopter istehsalı sahəsindəki bütün layihələrə bağlı bir proqramı üzərində danışıqlar aparacağını vurğulayıb. Onun sözlərinə görə, Türkiyə Milli Müdafiə Nazirliyi, Rusiyanın müxtəlif mənzilli raket müdafiə kompleksləri başda olmaqla, bir çox hərbi texnologiya ilə maraqlanır: "Bizim perspektivli aviasiya və helikopter komplekslərinin, zirehli texnika üçün dəstləşdirmə məmulatlarının hazırlanması, satılmış silaha satışdan sonrakı dövrdə xidmət üzrə bir sıra müştərək layihələrimiz var". Şirkət rəhbərinin sözlərinə görə, Türkiyə Rusiyada istehsal edilən ən yeni döyüş modulları, müxtəlif məsafəli hava hücumundan müdafiə vasitələri və tank əleyhinə müdafiə kompleksləri ilə maraqlanır. A.Mixeyev vurğulayıb ki, iki ölkənin siyasi rəhbərliyi arasında sıx və konstruktiv dialoq, "Rosoboroneksport" şirkəti ilə Türkiyənin güc idarələrinin nümayəndələri arasında işgüzar əlaqələr sayəsində" rəqiblərin hərbi-texniki əməkdaşlıq sahəsində Rusiya-Türkiyə münasibətlərinə müdaxilə etmək cəhdlərinin qarşısı alınır.

Yayılan digər məlumata görə, ABŞ-dan F-35 təyyarələrinin alınmasının sual altına düşdüyü bir vaxtda Rusiya hərəkətə keçərək Türkiyəyə təklif göndərib. Elə Aleksandr Mixeyev də Türkiyəyə qırıcı satmağa hazır olduqlarını deyib. O bildirib ki, Ankara belə bir tələblə çıxış etsə, Rusiya Birləşmiş Təyyarə Şirkəti ilə ortaq şəkildə qırıcı istehsal etməyə hazırdır. Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu da bu məsələdə Rusiyaya açıq qapı buraxaraq, yeni qırıcılara ehtiyacları olduğunu bildirib: "F-35 olmasa, mən yenə ehtiyacım olan qırıcını almaq məcburiyyətindəyəm. Biz S-400 alırıq. Çünki hava hücumundan müdafiə sisteminin təcili buna ehtiyacı var. Biz F-35 qırıcılarının istehsalı proqramı üzrə partnyoruq, bu layihədə iştirak edirik, bunun üçün lazımi məbləği ödəmişik. Hazırda bu məsələdə heç bir problem yoxdur. Amma hadisələrin inkişafının ən pis ssenarisi halında biz ehtiyacımızı başqa - bizə ən yaxşı texnologiyalar təklif olunan yerdən təmin etməli olacağıq".

**Qeyd edək ki, F-35 qırıcılarına alternativ olaraq Rusiyanın SU-57qırıcıları göstərilir. Eyni zamanda, yuxarıda qeyd olunduğu kimi, Rusiya və Türkiyə birgə silah istehsalı üçün də müvafiq addımlar atmağa hazırlaşır. Məhz həmin silahların ən perspektivli satış bazarlarından birini də Azərbaycan təşkil edir.**

***Hahid SALAYEV***



# Makron və Merkel Balkanları I Dünya Müharibəsi ərəfəsindəki oxşar təhlükəyə sürükləyir

*Almaniya və Fransa I Dünya Müharibəsini törətmiş ağır səhvlərini yenidən təkrarlayır...*

**Türkiyənin Balkan ölkələri ilə əlaqələri Makron və Merkelin böyük narahatlığına səbəb olub.**

Baki-xeber.com xəbər verir ki, bununla bağlı bəyanat Avropa Birliyi (AB) nəhəngləri - Almaniya və Fransanın Berlində Balkan ölkələri ilə zirvə görüşündə səsləndirilib. Zirvəyə Bosniya və Hersoqovina, Monteneqro, Albaniya, Şimali Makedoniya, Kosova, Serbiya, Xorvatiya və Sloveniya liderləri də qatılıblar.

Serbiya və Kosova arasında anlaşılmazlıqlar, Balkan ölkələrinin AB-yə üzvlük prosesi və Türkiyə ilə Rusiyanın bölgədəki nüfuzu müzakirə olunub. Türkiyə və Rusiya məsələsi ilə bağlı bölgə ölkələri liderlərinə xəbərdarlıq edilib. Ötən il "Türkiyə və ya Rusiyaya yönələn Balkan ölkələri istəmirik" bəyanatı verən Fransa Prezidenti Emmanuel Makron zirvə toplantısından əvvəl "Almaniya ilə Fransa arasındakı tarixi sülh nümunəsini tətbiq etmək istəyirik. Bu, Balkanlarda çox əhəmiyyətlidir" deyib.

Xorvatiya və Sloveniya AB-yə üzv ölkələrdir, digər Balkan ölkələri isə üzvlük üçün hələ də AB qapısında gözlədilir. Balkan ölkələrinin bu müddətdə Türkiyə ilə əməkdaşlıq etməsi isə AB-də ciddi narahatlıqla qarşılanır.

Bundan əvvəl "Reuters" də Türkiyənin Balkan ölkələri üzərində təsirini artırdığını yazmışdı.

Qeyd edək ki, Almaniya və Fransanın rəhbərləri eyni ekspansionist və təcavüzkar siyasəti 19-cu əsrin əvvəllərində də əks mövqelərdə olmaqla Balkan ölkələrində aparmışdılar. Rusiya və Türkiyə əleyhinə olmuşdular. Serbiyada atılan bir güllə dünya müharibəsi ilə nəticələndi. Oxşar siyasət və məsuliyyətsizlik bu gün də davam etdirilir.

***Baki-xeber.com***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**




# "Atatürk-2019" - Ermənistana Qarabağ təzyiqlərini artıran hadisə kimi...

**Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin dinc müstəvidə həllində maraqlı olduğunu bəyan etsə də, aparılan danışıqlar istənilən nəticəni verməyəcəyi təqdirdə güc yoluna əl atacağını bəyan edib. Məhz bu şəraitdə Qarabağ danışıqlarının nəticəsiz olması halında müharibə ehtimalının artması işğalçı Ermənistanda getdikcə ciddi narahatlıq yaratmaqdadır.**

Çünki belə savaşın nə ilə nəticələnəcəyini Ermənistanda yaxşı başa düşürlər.

Belə bir vaxtda Ermənistanda böyük təşviş yaradan hallardan biri də Azərbaycan və Türkiyənin hərbi qüvvələrinin növbəti təlimidir. Qeyd edək ki, Azərbaycan və Türkiyənin ordu birləşmələrinin növbəti birgə təlimləri start götürür. Azərbaycanda keçiriləcək hərbi təlimlər 1-3 may tarixini əhatə edəcək. "Mustafa Kamal Atatürk - 2019" şüarı ilə keçiriləcək təlimlərin əsas məqsədi qərargahların müştərək planlarının hazırlanması, şəxsi heyətin döyüş hazırlığı səviyyəsinin artırılması və onların birgə əməliyyatları icra etmək vərdişlərinin inkişaf etdirilməsi ilə Azərbaycan və Türkiyə hərbi bölmələrinin qarşılıqlı fəaliyyətinin koordinasiyasına nail olmaq, həmçinin təcrübə mübadiləsi həyata keçirməklə iki ölkənin hərbi qulluqçularının qarşılıqlı münasibətlərini və qarşılıqlı anlaşmasını yüksək səviyyədə saxlamaqdır. Birgə təlimə iki ölkə ordularının şəxsi heyəti, zirehli texnikası, artilleriya qurğuları və minaatanları, Hərbi Hava Qüvvələrinin döyüş və nəqliyyat helikopterləri, həmçinin hava hücumundan müdafiə və zenit-raket bölmələrinin cəlb ediləcəyi bildirilir. Təlimlərin Azərbaycanla Türkiyə arasında hərbi əməkdaşlıq haqqında sazişə əsasən keçiriləcəyi qeyd edilir. Keçiriləcək təlimlər, yuxarıda qeyd olunduğu kimi, Ermənistanda narahatlıqla qarşılanıb. Erməni ekspertlər hesab edirlər ki, ad açıqlanmasa da, təlimlərin hədəfi Ermənistandır. Məsələn, erməni şərhçi Aram Sarkisyan bu təlimlərin hədəfinin nəzəri baxımdan Ermənistan olduğunu və Dağlıq Qarabağ məsələsində hərbi təzyiqin edildiyini iddia edib. Moskvanın MDB İnstitutunun direktor müavini Vladimir Yevseyev isə iddia edir ki, bu təlimlər Ermənistana xəbərdarlığı da özündə ehtiva edir: "Ermənistan-Rusiya münasibətləri Ermənistanla hərbi münaqişəyə icazə vermir. Bunu Türkiyə də anlayır. Amma Türkiyə və Rusiyanın yaxınlaşması faktoru da var. Ermənistan bunu nəzərə almağa məcburdur".

Hərbi ekspert Aleksandr Xramçixin də hesab edir ki, Ermənistana qarşı hərbi təzyiqlər arta bilər. O, Türkiyə və Azərbaycanın hərbi müttəfiq olduğunu və belə təlimlərin təbii olduğunu da vurğulayıb: "Digər tərəfdən, Rusiya - Türkiyə münasibətləri də inkişaf edir. 2015-2016-cı il gərginliklərindən sonra son 2-3 il ərzində müxtəlif sahələrdə, xüsusilə də Suriya münaqişəsinin nizamlanması məsələsi çərçivəsində Rusiya Türkiyə ilə münasibətlərini kifayət qədər dərinləşdirib". Xramçixin keçiriləcək Azərbaycan-Türkiyə ordu birləşmələrinin birgə taktiki təlimlərində isə qəribə və gözlənilməz bir şey olmadığını qeyd etməklə, yeni bir şey görmədiyini vurğulayıb. O qeyd edib ki, Türkiyə ilə Azərbaycan hərbi müttəfiq olduğuna görə iki ölkənin müvafiq hərbi bölmələrinin birgə qarşılıqlı hərbi əməliyyatlarının uzlaşması, döyüş qabiliyyətinin artırılması və digər məsələləri həll etmək üçün müxtəlif ssenari üzrə birgə hərbi fəaliyyətləri çoxdan hazırlayır, bu ssenarilər əsasında birgə məşqlər keçirirlər. Bu hərbi əməliyyatların hansı məqsədlə, yaxud daha doğrusu nəzəri olaraq kimə qarşı nəzərdən keçirilməsi ilə bağlı suala cavab verərkən hərbi ekspert qeyd edib ki, formal qaydada olaraq əməliyyatlar istənilən rəqibə qarşı işlənib hazırlana bilər: "Lakin şübhə yoxdur ki, əsas rəqib, əlbəttə, Ermənistandır. Ən azı bu, Azərbaycan üçün belədir".

Elə erməni şərhçi Aram Sarkisyan da Azərbaycan-Türkiyə hərbi müttəfiqliyinin Ermənistan üçün böyük təhlükə olduğunu bildirir. Onun bu mövqeyini Helsinki Vətəndaş Assambleyasının Vanadzor ofisinin rəhbəri Artur Sakunts da bölüşür. Artur Sakunts vurğulayır ki, Azərbaycanın daxili resursları, həmçinin Türkiyə kimi ölkələrlə hərbi əməkdaşlığı nəticəsində hərbi gücü durmadan artır. Ermənistan ordusunda isə bütün bunların əvəzində acınacaqlı vəziyyət hökm sürür. O qeyd edir ki, inqilab dövründə orduda atəşkəs rejiminin pozulması halları azalsa da, maraqlıdır ki, qeyri-döyüş şəraitində itkilərin sayı getdikcə artır.

Artur Sakunts vurğulayıb ki, intihar və qətl halları 2017-ci ildə baş verən hadisələrlə müqayisədə ötən il və bu ilin keçən dövrü ərzində azalmayıb: "Mehridəki hərbi hissədə baş verən hadisə faktlarla sübut olunur. Belə bir münasibətin başqa hərbi hissələrdə də hökm sürmədiyinə dair zəmanət yoxdur. General balasının bu hərbi hissədə necə peyda olduğu kimi hallar ətraflı araşdırma aparılmasını tələb edir. Xidmət yerinin püşkatma yolu ilə təyin edildiyini sübut etməyə çalışırlar. Ermənistan Müdafiə Nazirliyi xidməti araşdırma təyin etməli və bu nəticələri ictimailəşdirməlidir. Əsgərlərə qarşı sərhəd bölgələrinə köçürülməklə məsuliyyət tədbirləri tətbiq edilib. Buna görə hüquqi əsaslar göstərilməlidir".

Erməni hüquq müdafiəçisi qeyd edir ki, hərbi hissədə baş verən hadisə əsgərlər üzərində, komandirlərə nisbətən, general balasının daha çox təsiri olduğunu göstərir. Onun sözlərinə görə, məhz belə bir ordu ilə Azərbaycan qarşısında duruş gətirmək heç də asan deyil: "Digər tərəfdən nəzərə almaq lazımdır ki, Azərbaycan Ermənistana düşmən münasibətdə olan Türkiyə ilə əməkdaşlığını genişləndirir, tərəflər birgə hərbi təlimlər keçirir, hərbçilər biri digərinin ərazisinə rahatlıqla keçir, hərbi texnika dlaşıyırlar. Bu vəziyyətdə ermənistanın KTMT-nin də dəstəyini itirməsi bizi daha ehtiyatlı olmağa sövq etməlidir".

Ekspertlər bildirir ki, əslində İrəvan narahat olmaqda haqlıdır. Faktdır ki, Azərbaycan müstəqilliyinin elə ilk günlərindən Türkiyə ilə strateji müttəfiqlik münasibətləri qurub və və bu fonda iki ölkə arasında çox sıx hərbi əməkdaşlıq mövcuddur. İki ölkənin silahlı qüvvələrinin müxtəlif təyinatlı bölmələri birgə təlimlərdə iştirak edir, təhsil və təcrübə mübadiləsi proqramları həyata keçirir. Özü də bu əlaqələr getdikcə dərinləşir. Bu fonda düşmən tərəf Azərbaycan Silahlı Qüvvələrinin necə inkişaf etdiyini, gücləndiyini, necə peşəkar səviyyəyə qalxdığını aydın görür. Digər tərəfdən, erməni tərəfinin narahatlığına yol açan əsas məqamlardan biri Azərbaycanın Türkiyədən idxal etdiyi hərbi texnikadır. Özü də bu texnikanın miqdarı ildən-ilə artır. Məsələn, təkcə ötən il Azərbaycan qardaş Türkiyədən aldığı silah-sursatın həcmini xeyli artırıb. Belə ki, Azərbaycan 2018-ci ildə Türkiyə istehsalı olan müdafiə və aviasiya məhsullarının alışını 85,7% artırıb. Türkiyə İxracatçılar Assambleyasının məlumatında bu xüsusda deyilir: " 2017-ci ildə Azərbaycanın Türkiyədən aldığı müdafiə və aviasiya məhsullarının qiyməti 34,143 milyon dollar təşkil etmişdisə, 2018-ci ildə bu göstərici 63 milyon 409 min dollara bərabər olub. Ümumilikdə, Türkiyə ötən il 2 milyard 35 milyon dollarlıq müdafiə və aviasiya məhsulu ixrac edib ki, bu da bir il əvvəlki analoji göstəricidən 17% çoxdur". Hesab edilir ki, cari il ərzində Azərbaycan Türkiyədən daha çox hərbi texnika alışını həyata keçirəcək. Ermənistanda hesab edirlər ki, Türkiyənin ən müasir silahlarını Azərbaycana satması pesrpektivdə erməni hərbçiləri üçün ciddi problem yaradır. Məsələn, erməni hərbi ekspert Van Ambartsumyan qeyd edir ki, Türkiyə hərbi sənayesinin ən son nailiyyətlərindən biri sayılan supermüasir "SOM-B1" qanadlı raketləri artıq Azərbaycan Hərbi Hava Qüvvələrinin silahlanmasına daxil olub. Həmin raketlər "Stealth" texnologiyası ilə hazırlanıb və məxsusi olaraq hava hücumundan, raket hücumundan müdafiə obyektlərinin məhv edilməsi üçün nəzərdə tutulub. Onun sözlərinə görə, həmin raketlər nəinki hava və raket hücumlarından müdafiə sistemlərini dəf etmək üçündür, eyni zamanda həmin sistemlərin özlərini məhv edə bilər və Ermənistanın bu raketlərə qarşı müdafiə imkanları yoxdur. Erməni hərbi ekspert əlavə edib ki, həmin yeni Türkiyə raketlərinin uçuş zamanı relyefə uyğun manevr etmək imkanları var. Ermənistan isə dağlıq ölkə olduğundan, həmin amil hava hücumundan müdafiə sistemləri üçün hədəfləri ayırd etməyi xeyli çətinləşdirəcək. Van Ambartsumyan bildirir ki, Azərbaycan Türkiyədən təkcə "SOM-B1" qanadlı raketləri deyil, digər müasir texnologiyaları da alır. Ambarstumyana görə, Bakının silahlanma sahəsində son addımları, xüsusən də hava döyüş texnikası sahəsində sövdələşmələri Azərbaycanın Qarabağ məsələsini hərbi yolla həll etməyə hazırlaşdığını göstərir. O bu məsələdə məhz Türkiyənin Azərbaycana hərtərəfli yardım göstərəcəyini vurğulayır. Elə Ermənistanın keçmiş müdafiə naziri Vaqarşak Arutunyan da eyni mövqeni bölüşür: "Azərbaycanla Türkiyənin hərbi əməkdaşlığı getdikcə möhkəmlənir. Bu gün Türkiyənin tutduğu mövqe Ermənistan üçün ən böyük təhlükədir.

Bu gün Türkiyə Cənubi Qafqaz regionundakı bütün layihələrdə əsas iştirakçıdır. Ankara regionun bütün resurslarından istifadə etmək imkanına malikdir. Güclü ordusu olan Türkiyə bu vəziyyətdə Ermənistan üçün ən böyük təhlükədir. Bu kontekstdə, xüsusilə Azərbaycan-Türkiyə hərbi koalisiyasının yaradılmasını vurğulamaq istəyirəm. Bu iki ölkənin hərbi təlimləri də Ermənistana müsbət heç nə vəd etmir".

Qeyd edilənlərdən görünən budur ki, iki qardaş ölkənin döyüş vəziyyətinə maksimum yaxınlaşdırılmış ortaq hərbi təlimlər keçirməsi Ermənistanda ciddi narahatlıq yaradır. Bütün bunlar isə iki qardaş ölkə arasında hərbi əməliyyatların gedişində fəaliyyəti daha asan koordinasiya etməyə imkan verir. Elə Ermənistanı da narahat edən budur ki, mümkün yeni Qarabağ savaşında Azərbaycanla Türkiyənin daha böyük zərbəsinə tuş gələcək.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Son illər ölkəmizin yerləşdiyi coğrafiyada cərəyan edən gərgin, bəzən də fəlakətli hadisələr, ictimai-siyasi sabitliyin pozulması, vətəndaş qarşıdurması və dövlətçilik institutlarının süqutu ilə müşayiət olunan, "rəngli inqilablar" seriyasından "ərəb baharı" tipli mahiyyətcə dağıdıcı, qanlı olaylar fonunda respublikamız ulu öndər tərəfindən müəyyənləşdirilmiş, uğurla davam və inkişaf etdirilən strategiyaya uyğun sosial tərəqqi, iqtisadi inkişaf yolu ilə inamla irəliləyir.**

# Xülyalar və gerçəklər



**Orxan MANSURZADƏ**
*polis polkovniki*

Sirr deyil ki, düz bir əvvəl keçirilmiş seçkilərdə seçicilərin mütləq əksəriyyətinin dəstəyini qazanan cənab İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməsi həmin ərəfədə ölkə başçısının anonsunu verdiyi köklü hüquqi-demokratik, sosial-iqtisadi islahatların, dövlət idarəçiliyinin səmərəliliyinin artırılması, hüquq-mühafizə siyasətinin daha da humanistləşdirilməsini, bir sözlə, insan və vətəndaş hüquq və azadlıqlarının daha da genişləndirilməsini, dövlət-vətəndaş münasibətlərinin yeni, daha mütərəqqi və müasir modelinin yaradılmasını özündə ehtiva edən məqsədyönlü, ardıcıl tədbirlərin həyata keçirilməsini daha da sürətləndirib.

Tamamilə aydındır ki, ölkəmizin sürətli sosial-iqtisadi inkişafını, dünya sivilizasiyasına, iqtisadiyyatına fəal şəkildə inteqrasiyasını ictimai-siyasi sabitliyin, əminamanlığın yüksək səviyyədə qorunması, cinayətkarlıqla uğurlu mübarizə, demokratik azadlıqların təmini olmadan təsəvvür etmək belə çətindir. Sevindirici haldır ki, bölgədəki sanbalına, nüfuzuna, sosial-iqtisadi göstəricilərinə, hərbi-siyasi qüdrətinə, həmçinin sabitliyin, təhlükəsizliyin qorunmasına, əhalinin hər yüz min nəfərinə düşən cinayətlərin sayının azlığına görə də nəinki postsovet, eləcə də Şərqi Avropa məkanında da lider dövlətlərdən biri kimi xarakterizə olunur və belə əlverişli durum nəinki ölkə vətəndaşları, hənçinin Azərbaycana səfər edən, burada yaşayaraq işləyən əcnəbilər tərəfindən də razılıqla qarşılanır.

Xalqımızın, ölkəmizin maraq və mənafelərini təmin edən müstəqil siyasət aparılmasını, beynəlxalq arenada nüfuzlu dövlətə çevrilməyimizi istəməyən bir sıra maraqlı güclərin və onların sifarişlərini yerinə yetirən, müstəqilliyin ilk illərində hakimiyyətə yiyələnsələr də heç bir il də duruş gətirməmiş, ən müasir tariximizdə Azərbaycanı xaos, anarxiya və dərəbəylik girdabına, cinayətkarlığın "at oynatdığı" məkana yuvarlamış, indiki halda radikal müxalifət qüvvələri liderləri siyasi arenada, necə deyərlər, öz qatarlarının getdiklərinin, arxivin bir küncünə atıldıqlarının fərqində olsalar da, "bəlkə də qaytardılar" xülyasından hələ də qurtula bilmirlər. Hakimiyyət və mənsəb naminə hətta şeytanla da ittifaqa girməyə hazır olan, siyasət səhnəsindəki indiki status-kvolarını, yəni formal mövcudluqlarını çoxdan xaricdəki bəzi bədxah qüvvələrin ianələrindən, qəpik-quruşlarından asılı radikal müxalifət funksionerləri, xüsusən bədnam Milli Şura təmsilçiləri, bu qurumun səhnə dekorasiyası kimi dəyişməz liderləri qarşılarına qoyulmuş məqsədlərə çatmaq yolunda ən böyük maneələrdən birinin daxili işlər orqanlarının olduğunu yaxşı anlayırlar. İndilikdə əsas fəaliyyətlərini virtual aləmə keçirmiş, adətən iqtidar mənsublarına, polis yetkililərinə sosial şəbəkələr üzərindən yüklənən, danışanda guya xalqın adından çıxış edən, reallıqda isə paytaxt stadionlarından birinə ən yaxşı halda 1500-2000 nəfərlik "narazıelektorat" nümayəndəsini toplaya bilən adıçəkilən qurumun, məsulları və dəstəkçiləri öz səriştəsizliklərini və yetərsizliklərini ört-basdır etmək, ölkədə qarışıqlıq, vətəndaşlarla dövlət qurumları arasında qarşıdurma yaratmaq məqsədilə xarici himayədarlarından qrantlar adı ilə ətək-ətək pullar alıb da para hesabına ayrıca götürülmüş bir məkanı da doldurmaq qabiliyyətində olmayan həmin kəslər bunun günahını təbii ki, hər zaman hakimiyyət cəbhəsində, bir az da dəqiqləşdirsək, daxili işlər orqanlarında görürlər.

Və bu yalanlarına beynəlxalq ictimaiyyəti, canidildən, az qala zülümzülüm ağlayaraq şikayətləndikləri, guya təqiblərə, işgəncələrə məruz qalmaları barədə donoslar, müraciətlər göndərdikləri Avropa Parlamenti, AŞPA, ATƏT PA kimi mötəbər beynəlxalq təşkilatları, "Amnesti İnternational" tipli hüquq müdafiəsi qurumlarını da şərik qoşmağa çalışırlar. Və artıq ölkə ictimaiyyəti də yaxşı görür və onun fərqindədir ki, ölkəmizə haqsız yerə demokratiyadan və insan hüquqlarından dərs keçməyə çalışan, "Dəyənək və pryanik" siyasətini özlərinin korporativ mənafeləri çərçivəsində, bir az da fərqli anlamda həyata keçirməyə çalışan avroparlamentarilərin, məlum mövzunu inhisarlarına alaraq ölkəmizə qarşı qərəzli, qeyri-obyektiv və əsassız iddialar irəli sürən, beynəlxalq aləmdə müstəqil siyasət yeridərək milli maraqlarını, öz gəlir-çıxarlarını təmin edən gənc respublikamıza münasibətdə vahid mövqedən çıxış edən bu antimilli əcnəbi və daxili çevrələrin sanki mövsümi xarakter daşıyan, bəzən əndazəni, diplomatik çərçivəni aşan şantaj xarakterli davranışları özünü daha qabarıq şəkildə böyüklüyündən-kiçikliyindən asılı olmayaraq Azərbaycan iqtidarının qazandığı nailiyyətlərdən sonra göstərir. Son bir il ərzində istər daxili, istərsə də xarici siyasət sahələrində əldə olunmuş müsbət nəticələrə nəzər salmaq kifayətdir.

Təkcə cari ilin ötən dövründə əhalinin sosial müdafiə cəhətdən ən zəif təbəqələrinin, xüsusən qaçqın və məcburi köçkün, şəhid ailələrinin həyat, məişət şəraitinin daha da yaxşılaşdırılmasına, dövlət idarəçiliyinin səmərəliyinin artırılmasına, hüquq-mühafizə fəaliyyəti sahəsində köklü islahatların aparılmasına, dövlət-vətəndaş münasibətlərin keyfiyyətcə yeni səviyyəyə yüksəldilməsinə yönəlmiş addımları xatırlamaq kifayətdir.

Bu ilin Novruz bayramı ərəfəsində dövlət başçımızın böyük humanizm və mərhəmət göstərərək 400 nəfərə yaxın məhkumu əfv edərək sonuncuları ailələrinə və yaxınlarına qovuşdurması cəmiyyətdə vətəndaş həmrəyliyinin möhkəmləndirilməsinə xidmət edən əhəmiyyətli mesajlardan biri olmaqla yanaşı, uğurlarımıza sevinməyən bədxahlarımızı və dəstəkçilərini dərin xəyal qırıqlığına uğratdı, onları möhkəm qıcıqlandırdı.Yüksək tribunalardan şablon ifadələrlə, ikili standartlara qulluq edən ittihamlarla, saxta bəyanatlarla ölkəmizə dil uzadan, kükrəyən birilərinin arqumentlərini əllərindən aldı, onları "tərksilah"etdi desək, yəqin ki, yanılmarıq. Hakimiyyətin opponentlərini məyus etmiş, onları kədərə soxmuş bu uzaqgörənliyi, cəsarəti, dostlarımızı sevindirmiş məlum diplomatik məharəti və comərdliyi dünyanın çeşidli dövlət, siyasi xadimlərindən tutmuş ən mötəbər təşkilatların rəhbərlərinədək çoxu ədalət və insaf naminə yüksək qiymətləndirdi, ən pis halda təqdir etdilər. Ölkəmiz adına atılan bütün addımları hər zaman özlərinin dar və dayaz, primitiv düşüncə bucaqlarından, guya hansısa dövlətin, yaxud təşkilatın basqısının nəticəsi kimi "dəyərləndirməyə" öyrəşmiş antimilli radikal qüvvələr ölkə və beynəlxalq ictimaiyyət, dairələr tərəfindən birmənalı şəkildə müsbət qiymətləndirilən kütləvi əfv aksiyasını özlərinin gözə görünməyən, olmayan fəaliyyətlərinin nəticəsi kimi sırımağa, bu yöndə özlərinə təskinlik verməyə cəhd etsələr də, fakt faktlığında qalır. Görünən dağa nə bələdçi? Yalnız xırda istisnalar olmaq şərti ilə...

Yəni dünənədək Avropanın, Amerikanın yüksək tribunalarından sevdikləri insan haqları mövzusunda moizə oxumağa, bu sahədə "rəhbər göstəriş"lərini verməyə öyrəncəli olmuş, şübhəsiz ki, erməni sevgisindən yoğrulmuş bəzi siyasətbazlar, əllamələr birdən-birə çarəsiz duruma, depressiyaya düşdülər. Bu adamlar əfvə dair son sərəncamın ruhuna və mahiyyətinə aşıq-aşkar şəkildə hansısa mənfi fikir söyləməyə cürət etməsələr də, məlum mövzunu manipulyasiya və spekulyasiya predmetinə çevirib bu dəfə "Amnesti İnternational" təşkilatının dili ilə ölkəmizin ünvanına çamur atmağa girişiblər. Guya ki, əfv olunanların çoxluğu Azərbaycanda məhbusların sayının artmasının göstəricisidir və s. Yaxın zamanlaradək bəzi avropalı siyasətbazlar, deputatlarla yerli,"müstəqil" hüquq müdafiəçilərinin hardasa alver, bazarlaşma predmetinə çevirdikləri, elə hər iki tərəfə külli miqdarda vəsait gətirən hansısa "siyasi məhbus" siyahılarının mövcudluğu şübhə altına alınıb, məhkum soydaşlarımızın və yaxınlarının heysiyyatı ilə oynamağa adət etmiş belələrinin xeyirxah obrazlarında maskaları üzlərindən yerə düşüb. Belələri cinayətkarlıqla mübarizə siyasətinin əlifbasını bilmədən, cinayətlərin artma və ya azalma tendensiyasının, açılmasının , baş vermə səbəblərini araşdırmadan primitiv düşüncə tərzləri ilə respblikamızı növbəti dəfə hansısa reytinq cədvəllərində ölkəmizi siyahının sonuna keçirmək istəklərilə həqiqətən tamamilə cığal, qərəzli və islaholunmaz xarakterlərini növbəti dəfə ortaya qoymuş oldular.

Hüquq-mühafizə, o cümlədən daxili işlər orqanlarının ölkəmizdə cinayətkarlıqla qətiyyətli mübarizə, ictimai asayişin etibarlı təmini istiqamətlərində apardıqlarıiş, kriminogen durumun nəzarətdə olması, ümumən cinayətlərin bir sıra ağır növlərinin ilbeil azalması, açılma göstəricisinin isə 80 faizdənyuxarı olması, əmin-amanlığın yüksək səviyyədə qorunması,asayişin təmini, cinayətkarlıqla mübarizədə əldə edilən müsbət nəticələrgeniş ictimaiyyətə də, yerli və əcnəbi hüquq müdafiəqurumlarına, nüfuzlu beynəlxalq təşkilatlara da yaxşı məlumdur, çünki bu barədə aidiyyatı dövlət orqanları tərəfindən KİV-lər vasitəsilə mütəmadi olaraq məlumatlar yayımlanır. Şübhəsiz ki, cinayətkarlığı doğuran səbəblər, onların kriminoloji aspektləri, cinayətlərin artma-azalma tendensiyaları, həyata keçirilən qətiyyətli və prinsipial hüquq-mühafizə siyasəti sayəsində açılma göstəricisinin əksər Qərb dövlətləri ilə müqayisədə xeyli yüksək olması nəticəsində məsuliyyətə cəlb olunanların, deməli buna görə həm də məhkəmələr tərəfindən cəzalandırılanların sayı kimlərəsə çox görünə, cinayətə görə cəzanın labüdlüyü prinsipinin dönmədən həyata keçirildiyi ölkələrdə bəzən belə tendensiyalar da özünü göstərə bilər və belə durum onları, təbii ki, həmin xətdən, doğru yoldan çəkindirməli də deyil. Burada "qızıl ortam" praktikada özünü təsdiqləmiş bir metod da var ki, ölkəmiz də həmin istiqamət üzrə uğurlu məsafə qət edib. Yəni cinayətkarlıqla sərt mübarizə xətti cəza siyasətinin humanistləşdirilməsi ilə paralel şəkildə həyata keçirilir.

Məhz həmin siyasətin uğurla həyata keçirilməsinin növbəti bariz nümunəsidir ki, əfv olunanların arasında elə yerli hüquq müdafiəçilərinin çeşidli, sövdələşmə predmetinə çevrilmiş siyahılarında adları "siyasi məhbuslar" kimi hallanan şəxslər də yetərincəydi və birdən-birə xeyli sayda keçmiş məhkumun azadlığa buraxılması ölkəmizə qarşı vahid mövqedən çıxış edən "müstəqil" ekspertlərin və xarici himayədarlarının "məhbus alveri"nə sarsıdıcı zərbə vurdu və bu, böyük ölçüdə sonuncuları sonradan dövlətimizə qarşı məkrli planlar quraraq reallaşdırmaqdan, saxta arqument bazasından məhrum etdi. Ölkə başçısının məhbus siyahılarını siyasi və maddi gəlir mənbəyinə çevirmiş məlum şəbəkənin üzərinə cəsarətlə getməsi bu çevrəni yenidən toparlanmağa, köhnə bazaya yeni isimlər daxil etməyə sövq edib.

*(Ardı 11-ci səh.)*

# Formula 1 SOCAR Azərbaycan Qran Prisi 2019-a dair maraqlı faktlar və statistika...

**Mercedes komandasının pilotu Valteri Bottası builki mövsümdə ikinci qələbəsini Bakı Şəhər Halqasında növbəti dəfə baş tutmuş Azərbaycan Qran Prisində qazandı. Formula1.com saytında bu yarışla bağlı verilmiş maraqlı statistikanı sizə təqdim edirik:**

- Mercedes komandası pilotları mövsümün başlanğıcında ardıcıl olaraq 4 yarışda ilk iki yeri tutmaqla 1992-ci ildə bu göstərici üzrə 3 yarışlıq uğura sahib Williams komandasına məxsus rekordu qırdı.

- Formula 1 üzrə keçirilmiş son 16 yarışın hamısında ilk pilləyə Mercedes komandasının pilotlarından biri çıxıb. Bu, bir komandanın hər iki pilotunun birlikdə fasiləsiz yiyələndiyi ən uzun müddətli qalibiyyətlər silsiləsidir.

- Ferrari komandasının pilotu Sebastian Fettel indiyədək Bakıda baş tutmuş bütün Formula 1 yarışlarını ilk 4-lükdə bitirib. O, bu yarışların heç birində ilk 2-likdə yer ala bilməyib.

- Racing Point komandasının pilotu Serxio Perez bugünədək Bakıda keçirilmiş 4 yarışdan 3-də ilk 6-lığa düşüb.

- McLaren komandasının pilotu Karlos Saynz son üç Azərbaycan Qran Prisində yarışı ilk 8-likdə başa vurub.

- Ötən ilki Azərbaycan Qran Prisindən sonra keçirilmiş yarışlar ərzində McLaren komandasının hər iki pilotu ilk dəfə bu yarışda sona qədər mübarizə apararaq xala yiyələnə bilib.

- Builki Azərbaycan Qran Prisi Racing Point komandasının pilotu Lens Strolun cari mövsümdə sıralanma turunun 1-ci mərhələsindən keçə bilmədən yarışı ilk 10-luqda bitirərək xala yiyələndiyi 2-ci yarışdır.

- Williams komandası pilotlarından hər ikisi də cari mövsümdəki yarışlarda axıracan mübarizə aparmaqla rekord göstəriciyə imza atıblar. Komandanın pilotları bu yarışlarda ardıcıl olaraq sonuncu 2 yerə yiyələnib. Bu da rekord göstəricidir.




- Alfa Romeo komandasının pilotu Kimi Raykkonen indiyədək Bakıda baş tutmuş bütün Formula 1 yarışlarında ən güclü üç komandanın təmsilçiləri xaricində xala yiyələnən yeganə pilotdur.

- Haas komandasının pilotu Roman Qrojan indiyədək Bakıda keçirilmiş bütün Formula 1 yarışlarını uğurla başa vursa da xala yiyələnə bilməyib. Toro Rosso komandasının pilotu Daniil Kvyat bugünədək Bakıda baş tutmuş 4 Qran Pri yarışından heç birini axıracan tamamlaya bilməyib.

*(Əvvəli 10-cu səh.)*

Görün mənəvi cəhətdən deqradasiya, hər şeydən, hətta şəhid mövzusundan da qazanc götürmək arzusu nə həddə çatıb ki, ötən ilin iyulun 10-da Gəncə şəhərində ictimai asayişin qorunması üzrə xidməti vəzifələrini yerinə yetirən 2 polis əməkdaşını qətl edən, bir neçəsini isə yaralayan,hazırda Cinayət Məcəlləsinin bir sıra ağır maddələrinə əsasən təqsirləndirilənlər qismində məhkəmə qarşısına çıxan radikal dini yönümlü bir sıra şəxslər də məlum şəbəkənin maraq dairəsinə düşüb. Törədilmiş ağır cinayətlər, həyatları bahasına asayişi, sabitliyi qorumuş şəhid polislərin hər bir şəxsə örnək olası qəhrəmanlığı, fədakarlığı bir yana qalıb, bir para "müstəqil" hüquqşünas və ekspertlər, onların dəmtutanları isə qondarma məhbus siyahılarını nə vəchlə olursa-olsun uzatmaq sevdasından, asayiş keşikçilərinin qanı üzərindən pul-para, siyasi dividendlər qazanmaq mərəzindən qurtula bilmirlər. Özü də bu cəhdlər elə bəsit və primitiv forma və üsullarla edilir ki, adamın matı-qutu quruyur...Biriləri vətəndaşların təhlükəsizliyi, asayişin, əmniyyətin keşiyindədir, bu yolda hətta həyatlarını da qurban verirlər, digərləri isə sabitliyə, əmniyyətə qəsd edən, iğtişaşlar yaratmaqla dövlətçiliyə qəsd edən, bu yolda polis əməkdaşlarını belə qətl etməkdən çəkinməyən radikal, antimilli ünsürlərin guya ki, hüquqlarını cani-dildən müdafiə edirlər, onların istintaq prosesində guya işgəncələrə məruz qalmalarına dair dezinformasiyalar yaymaqla sonuncuları zorla özlərinin "çörək ağacları"na-"siyasi məhbus" siyahılarına pərçim etməyə çalışırlar.

Məlum olduğu kimi, əhatə dairəsinə, Yer kürəsinin bütün bölgələrində geniş izləyici sayına və əhəmiyyətinə görə dünyanın ən nüfuzlu idman yarışlarından biri-Formula 1 üzrə dünya çempionatının dördüncü mərhələsi - "SOCAR Azərbaycan Qran-Prisi" cari il aprelin 26-dan 28-dək olan müddətdə Bakı şəhərində keçirilib.Mübaliğəsiz demək olar ki, həmin möhtəşəm 3 gün ərzində Bakı şəhəri Pekin, Honkonq kimi əvvəlki təsnifat mərhələlərini adlamış dünyanın azman paytaxtları kimi Formula 1-i ən yüksək səviyyədə keçirməklə yüz milyonlarla azarkeşin diqqətini özünün füsunkar gözəlliyinə, Qərblə Şərqin vəhdəti olan arxitekturasına, sözügedən yarışların mükəmməl səviyyədə təşkilinə cəlb etdi, planetin ən məşhur televiziyalarının, KİV-lərinin, sosial şəbəkələrinin manşetinə düşərək eninə-uzununa adı hallandı, dillərə dastan oldu. Təbii ki, hər bir yurdsevər, vətənsevər, normal məntiqi, düşüncəsi olan hər bir şəxs dünyaca məşhur belə bir idman yarışmasının ölkəmizdə, onun paytaxtında keçirilməsindən sonsuz qürur duyar, mükəmməl təşkilatçılıq qabiliyyəti və bacarığı ortaya qoymuş ölkə rəhbərliyinin, həm də hər birimizin, Azərbaycanın uğurunaürəkdən sevinər, respublikamızın, onun milli adətlərinin, eləcə də idman ənənələrinin tanıdılması baxımından belə tədbirlərin burada daha çox keçirilməsini arzulayardı. Hələ onu demirik ki, belə mötəbər idman tədbirinin paytaxtımızda təşkili ölkəmizin son illər artan beynəlxalq nüfuzunun və iqtisadi gücünün, regionda lider dövlətə çevrilməsinin, respublikamızda həyata keçirilən geniş quruculuq, abadlıq işlərinə, köklü demokratik, hüquqi islahatlara beynəlxalq birlik və idman ictimaiyyəti tərəfindən verilən yüksək qiymətin əyani təzahürüdür.

Lakin ölkəmizin, hakimiyyətin növbəti nailiyyətinə, parlaq uğuruna sevinmək iqtidarında olmayanlar, cığallıqlarından, qərəzkarlıqlarından və yersiz təkəbbürlüklərindən tərəfdaşları arasında da hər zaman problemlər yaşayanlar indi dövlət mənsublarını şöhrətpərəstlikdə, guya vətəndaşları saya almamaqda günahlandırırlar. Tarixin ironiyasına baxın: vaxtilə liderlərinə, prinsiplərinə, əqidə yoldaşlarına xəyanət edənlərin, ortabab idman meydançasını doldurmaqda acizlik çəkənlərin gözlərini paxıllıq, xudpəsəndlik, qəflət elə bağlayıb ki, onlar sərbəst toplaşmaq azadlığını bir dəyər olaraq hörmətdən, urvatdan saldıqları bəs deyilmiş kimi, tam üç gün ərzində dünyanın xəbər, idman gündəmini zəbt etmiş əfsanəvi bir yarışla özlərinin miskin mitinqçilik azarları, mənasız məşğuliyyətləri arasında anologiya da aparırlar (?!)

Yeri gəlmişkən, daxili işlər orqanlarının şəxsi heyəti də Formula-1kimi mötəbər beynəlxalq idman yarışı günlərində ictimai asayişin və daxili təhlükəsizliyin etibarlı qorunmasını, planlaşdırılan tədbirləri yüksək səviyyədə həyata keçirib.Təxminən 26 il əvvəl hakimiyyətə gəlib ölkəni vətəndaş müharibəsi təhlükəsi, dağılmış iqtisadiyyat və cinayətkarlığın tüğyan etməsi ilə üzbəüz qoymuş, indi Milli Şura və ya Azərbaycan Xalq Hərəkatı kimi qondarma qurumlarda təmsil olunan köhnə tanış simalar indi də xarici havadarlarından aldıqları təlimatlara və sifarişlərə uyğun olaraq, mötəbər yarışların, kütləvi tədbirlərin keçirildiyi, yaxud gözlənilən növbəti siyasi, diplomatik uğurlar qazanacağımız ərəfəsində beynəlxalq təşkilatlara ölkəmizdə guya demokratik azadlıqların azlığı, insan hüquqlarının pozulması barədə dezinformasiyalar göndərir, respublikamız barədə yanlış ictimai rəy formalaşdırmağa çalışırlar.

Ancaq onlar bilməmiş deyillər və son ayların təcrübəsi göstərir ki, dünyanın ən inkişaf etmiş dövlətlərində də polis asayişi mühafizə funksiyalarını yerinə yetirərək istənilən qanunsuz aksiyanın qarşısını da alır, ictimai qaydanı kobud şəkildə pozan, tabeçilik göstərməyən şəxslərə qarşı fiziki güc də tətbiq edir. Və bu zaman normal düşüncə, məntiq sahibi olan hər hansı ictimai və ya siyasi təşkilat nümayəndəsi polisi öz vəzifə borcunu yerinə yetirdiyinə görə qınamır, məzəmmət obyektinə çevirmir. Hələ biz onu demirik ki, ara-sıra Avropa ölkələrindən, məsələn demokratik azadlıqların ayaq açdığı, "sarı jiletlilər"in timsalında Paris şəhərindən də yan keçməyən kütləvi etiraz aksiyalarının, müxtəlif tətillərin qarşısının alınması bəzən asayiş keşikçiləri ilə nümayişçilər arasında şiddətli qarşıdurmalarla da müşayiət olunur. Bu kontekstdə konkret olaraq, Şimali Afrikada və Yaxın Şərqin bəzi dövlətlərində qırğınlarla, böyük dağıntılarla və hakimiyyətin zorla dəyişdirilməsi ilə nəticələnən məlum proseslərin sonda həmin ölkələrin xalqları üçün nə ilə yekunlaşdığı, onlara hansı sürprizlər bəxş etdiyini görməmək mümkün deyil. Necə deyərlər, zaman ən böyük və ədalətli hakimdir!

Belələrinə qısa bir xatırlatma yerinə düşərdi. Əvvəla, həm siyasi, həm sosial-iqtisadi, həm də demokratik islahatların uğurla həyata keçirildiyi, dünyanın inkişaf edən ölkələri sırasına çıxmaqda olan Azərbaycanı hər hansı bir Şərq, yaxud Qərb dövləti ilə müqayisə etməyin, ölkəmizdə inqilab, üsyan, yaxud vətəndaş müharibəsi üçün münbit şərait olduğunu düşünməyin özü, ən azından qərəzli yanaşmadır. Azərbaycan vətəndaş müharibəsini də görüb, çevriliş cəhdlərini də, ümummilli liderimizin müdrikliyi, ölkə Prezidentinin dərin zəkası, qətiyyəti və uzaqgörənliyi sayəsində qansız-qadasız ən demokratik islahatları və inkişafı da. Gənc respublikamız dünyanın demokratik, sivill, hüquqi dövlətlərindən biri kimi bütün bu sayaq problemləri keçmişdə qoyub və indi bizim üçün yalnız bir düşmən, bir müharibə cəbhəsi var.

Əməkdaşlarımız və hərbi qulluqçularımız ölkəmizin suverenliyi, ərazi bütövlüyü uğrunda fədakarlıq göstərib bu yolda qurbanlar verməklə yanaşı, sabitliyin dönməzliyinin təminində, əmin-amanlığın qorunmasında, qanunsuz aksiyaların qarşısının alınmasında hər zaman öz həlledici sözünü demiş və bundan sonra da deyəcəklər..

**Azərbaycan orta ümumtəhsil məktəblərində dinin ayrıca bir fənn kimi tədris edilməsi məsələsi son illər gündəmdədir. Bir neçə gündür orta ümumtəhsil müəssisələrində dinin ayrıca fənn kimi tədris edilməsi geniş müzakirə edilir. Məsələyə yanaşmalar müxtəlifdir. Ölkənin tanınmış elm, mədəniyyət xadimlərinin bir çoxu, eləcə də bir sıra millət vəkilləri hesab edirlər ki, dinin orta məktəblərdə xüsusi bir fənn olaraq tədrisi zərərlidir.**

***Məhərrəm Zülfüqarlı:** "Dinin orta məktəblərdə ayrıca fənn kimi tədris edilməsini qəbul edə bilmirəm"*

***Kamran Əsədov:** "Orta təhsil müəssisələrində din fənninin tədrisi imkan verəcək ki..."*

***Nadir İsrafilov:** "Dinin ayrıca bir fənn kimi tədrisinə hazırda ehtiyac yoxdur"*

# Orta məktəblərdə dinin fənn kimi tədris olunmasına qarşı vahid mövqe var - Nazirliyin mövqeyi güclü çıxdı...

Qeyd edək ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi hesab edir ki, orta və ali məktəblərdə dinin tədrisi vacibdir. Hətta qurum bunun ayrıca fənn kimi tədrisinin vacibliyini vurğulayır. Qurumdan bildirilib ki, böyüməkdə olan nəslin milli-mənəvi dəyərlərimizə uyğun formalaşması istiqamətində bütün zəruri tədbirlər həyata keçirilir. Qurumdan onu da bildiriblər ki, son illər orta məktəblərdə "Həyat bilgisi" adlı fənn tədris olunur. Bu fənn çərçivəsində şagirdlərə dinlərlə bağlı məlumatlar da verildiyini qeyd edən komitə yetkililərinin sözlərinə görə, hazırda "Həyat bilgisi" fənninin proqramında dinlər haqqında məlumatların genişləndirilməsi məqsədilə işlər görülür. "Ümumiyyətlə, məqsəd dinlər barədə şagirdlərə məlumat vermək, onların bu istiqamətdə dünyagörüşünü artırmaqdır. Bir sözlə, söhbət orta məktəblərdə dinin tədrisindən yox, dinlərlə bağlı ilkin biliklərin verilməsindən gedir. Bu sahənin təkmilləşdirilməsi istiqamətində gələcəkdə də işlər davam etdiriləcək. Azərbaycanla yanaşı, digər ölkələrdə də belə təcrübələr var. Hətta bir sıra ölkələrdə bütün dinlər (səmavi və digərləri) barədə orta təhsil müəssisələrində ayrıca dərslər keçirilir" - deyə komitədən mətbuata bildirilib.

Məsələ ilə bağlı Təhsil Nazirliyindən isə bildirilib ki, orta məktəblərdə dinin ayrıca fənn kimi tədris edilməsi gündəmdə deyil. Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehovun sözlərinə görə, gələn tədris ilindən Azərbaycanda 4-8-ci sinif şagirdlərinin dini biliklərin daha geniş şəkildə yer aldığı yeni "Həyat bilgisi" dərsliklərindən istifadə etməsi nəzərdə tutulur.

C.Valehovun bildirdiyinə görə, 4-8-ci sinif şagirdləri üçün yalnız "Həyat bilgisi"nin deyil, digər fənlər üzrə də dərsliklərin təkmilləşdirilmiş nəşri hazırlanır. Hazırda həmin dərsliklər ictimai müzakirədədir. C.Valehov qeyd edib ki, "Həyat bilgisi" dərsliyində dini biliklərlə bağlı məlumatlar olsa da, təkmilləşdirilmiş variantda bu məlumatlar daha da genişləndirilib.

Nazirlik rəsmisi bildirib ki, təkmilləşdirilmiş yeni dərsliklərin sentyabrdan şagirdlərin istifadəsinə verilməsi nəzərdə tutulur.

Mütəxəssislər hesab edirlər ki, orta məktəblərdə dinin ayrıca bir fənn kimi tədris edilməsi yaxşı hal deyil. Ekspertlərə görə, "Həyat bilgisi" dərsliyində, eləcə də tarix və digər ictimai fənlərin içində şagirdlərə dini bilgilər də verilir. Dinin bütün təhsil müəssisələrində məcburi qaydada tədris edilməsinin yaxşı hal olmadığını deyən ekspertlər hesab edirlər ki, onsuz da şagirdlərin dərs yükü ağırdır və əlavə olaraq dinin də ayrıca fənn kimi tədris edilməsi onların yükünü daha da ağırlaşdıra bilər.

Məsələyə münasibət bildirən ictimaiyyət nümayəndələri, ziyalılar əsasən Təhsil Nazirliyinin mövqeyini dəstəkləyirlər.

Tanınmış tarixçi-alim, professor Məhərrəm Zülfüqarlı "Bakı-Xəbər"ə bildirdi ki, dinin orta məktəblərdə ayrıca bir fənn kimi tədrisi düzgün deyil. O hesab edir ki, Azərbaycanda din dövlətdən ayrı olduğu üçün, dinin xüsusi bir fənn kimi tədris edilməsinə ehtiyac yoxdur. "Azərbaycan tarixi" fənninin



tərkibində dinin tarixi də tədris edilir. Bundan başqa, "Həyat bilgisi" dərsliyində də din haqqında məlumat verilir. Dinin orta məktəblərdə ayrıca fənn kimi tədris edilməsini qəbul edə bilmirəm. Hesab edirəm ki, buna ehtiyac yoxdur. Bu mənim subyektiv fikrimdir. Bizim konstitusiya ilə din dövlətdən ayrıdır və bu baxımından ayrıca din dərslərinin keçirilməsi məqbul deyil. Əslində, islam tarixini "Azərbaycan tarixi" kitabına salmaq olar".

Tanınmış təhsil eksperti Kamran Əsədov bizimlə söhbətində bildirdi ki, Azərbaycanda orta məktəblərdə dini mövzuda tədbirlərin keçirilməsi zaman-zaman gündəmə gətirilir və müzakirə olunur. K.Əsədov hesab edir ki, gərək orta məktəblərdə dini biliklərin tədrisi işinə çoxdan başlanardı. "Dini dəyərlər tarix boyu xalqımızın milli-mədəni və ideoloji identikliyini formalaşdırmış əsas baza hesab olunur. Orta təhsil müəssisələrində din fənninin tədrisi imkan verəcək ki, həm şagirdlərin dini cəhətdən savadlanması sağlam əsaslar üzrə baş versin, həm də onlar tarixi ənənəmiz və keçmişimizin dini tərəfini öyrənsinlər. Əxlaqi tənəzzül və həyata baxış tərzinin xalqımıza yad təmayüllərin təsiri ilə cılızlaşması, ictimai əxlaq qaydalarının pozulması, ailədaxili tərbiyənin xoşagəlməz format kəsb etməsi daha çox azyaşlı və gənclərə təsir göstərir. Məhz bu zəruri edir ki, orta məktəblərin aşağı siniflərindən başlayaraq dini biliklər tədris olunsun. Amma qeyd etmək istəyirəm ki, dini tədrislə məşğul olacaq müəllimlərin ölkə daxilində, yaxud da xaricdə təhsil alması fərq etmir. Əsas budur ki, müəllim islam dinini yaxşı bilsin, ölkəmizin milli-mənəvi "xəritə"sinə bələd olsun. Xaricdə oxuyan əksər dindarların bəlkə də ən çatışmayan cəhəti Azərbaycan reallığına bələd olmaması, təhsil aldıqları ölkələrin dini mühitini ölkəmizdə kortəbii şəkildə yaratmaq cəhdləridir. Yerli məzunların da çatışmayan cəhəti islam hüququ, tarixi, mədəniyyəti və s. haqda biliklərinin yüksək səviyyədə olmamasıdır. Bir sözlə, yerli məzunların əksəriyyəti sağlam dini tədris aparacaq səviyyədə deyil. Din fənninin şagirdlər tərəfindən yaxşı şəkildə mənimsənilməsini təmin edən əsas amillərdən biri budur ki, müəllimin özü dinin əmr və qadağalarına riayət etsin, əxlaq və davranışı ilə, həyat tərzi ilə onlara nümunə olsun. Bununla yanaşı, din fənninin tədrisini aparan müəllimin pedaqoji və psixoloji biliyi olmalı, tədris zamanı yekcins çatdırma və öyrətmədən uzaq olmalıdır. İslama dar baxış, dünyagörüşünün məhdudluğu da din fənninin tədrisi ilə məşğul olacaq müəllimlər üçün yolverilməzdir".

Digər tanınmış təhsil mütəxəssisi Nadir İsrafilov isə, həmkarından fərqli olaraq, Təhsil Nazirliyinin mövqeyini dəstəklədiyini bildirdi. O hesab edir ki, dini ayrıca bir fənn kimi tədris etməkdənsə, "Həyat bilgisi" və tarix kitablarında dini bilgiləri genişləndirmək daha məqsədəuyğundur. "Bu məsələ son illər geniş şəkildə müzakirə edilir. Bəziləri onun vacib olduğunu deyir, bəziləri isə əksini söyləyirlər. Dəfələrlə bu məsələ müzakirəyə çıxarılıb və hər dəfə də birmənalı qarşılanmayıb. Ona görə də konkret fikir söyləmək çətindir. Din bizim mənəvi dəyərlərimizdən biridir, onu bilmək, öyrənmək lazımdır. Bizdə dini anlama çox aşağı səviyyədədir. Bizə dini maarifləndirmə lazımdır, ancaq hələlik müxtəlif fənlərin tərkibində bu iş həyata keçirilməlidir. Bilirsiniz ki, bəzi məsələlərin tədrisi dəfələrlə gündəmə gətirilib.

Bir vaxtlar dedilər ki, orta məktəblərdə multikulturalizm tədris edilsin, cinsi tərbiyə keçilsin. Bizdə onsuz da tədris proqramı ağırdır. Şagirdləri çox yükləmək olmaz.

**Orta məktəblərdə "Həyat bilgisi" tədris edilir. Bu dərsliyin içində dinlə bağlı məsələləri genişləndirmək, məlumatları daha ətraflı şəkildə vermək lazımdır. Azərbaycan tarixinin uzun bir dövrü dinlə bağlıdır. Bu məsələlər dərsliklərdə bir qədər təkmilləşdirilməlidir. Hazırda dinin məktəbə gəlməsi məsələsində ciddi problem kadrların yoxluğu ilə bağlıdır. Ölkə başçısının sərəncamı ilə İlahiyyat İnstitutu yaradılıb, ixtisaslı kadr problemi həll edildikdən sonra bu məsələni gündəmə gətirmək olar. Ancaq hesab edirəm ki, dinin ayrıca bir fənn kimi tədrisinə hazırda ehtiyac yoxdur. Mən Təhsil Nazirliyinin mövqeyini dəstəkləyirəm. "Həyat bilgisi" dərsliyi təkmilləşdirilməlidir. Çünki bu dərslikdə dini anlam daşıyan materiallar azdır.**

O ki, qaldı dinin ayrıca bir fənn kimi tədrisinə, İlahiyyat İnstitutu kadr hazırlayandan və bizim potensialımız olandan sonra bu məsələyə bir daha baxmaq olar" - deyə N.İsrafilov bildirdi.

***İradə SARIYEVA***

# Şou-biznes adamları yenidən televiziyaların bədii şuralarında peyda olmağa başlayıb...

**Yerli telekanallarda baş verənlər, bəzi aparıcıların, qonaqların, əsasən də şou-biznes nümayəndələrinin qeyri-etik davranışları televiziyaları hərəkətə keçməyə vadar edib. Bir müddət əvvəl AzTV-də görkəmli elm-mədəniyyət, musiqi xadimlərinin təmsil olunduğu bədii şura yaradıldı. Bu telekanalda yaradılan bədii şuranın tərkibi mübahisə doğurmur, çünki burada kifayət qədər peşəkar insan yer alıb.**



***Əkbər Qoşalı:** "Bəzi özəl telekanallarda yaradılan bədii şuraların tərkibinin yalnız sənətçilərdən, şou-biznesçilərdən, telekanalların öz mütəxəssislərindən ibarət olması yaxşı hal deyil"*

***Qiymət Məhərrəmli:** "... bu tərkib televiziyalardakı neqativ hallarla mübarizə apara bilməyəcək"*

AzTV-dən sonra bəzi özəl kanallarda da bədii şura yaradılıb. Lakin bu bədii şuraların tərkibində əsasən şou-biznes nümayəndələri təmsil olunurlar. Bu şou-biznesçilərin çoxu isə efirlərdə qalmaqal törədənlər sırasında dayanırlar. Əslində, bədii şuralar ona görə yaradılıb ki, şou-biznes sahəsinə aid olan ifaçılara nəzarət etsinlər. Bildiyimiz kimi, efirdə ən çox problem yaradan, qeyri-etik davranışlar sərgiləyən elə şou-biznesçilərdir. Deməl olar ki, qalmaqalların əsas hissəsi də onların aparıcısı və iştirakçısı olduğu proqramlarda yaşanır.

Özəl telekanallarda yaradılan bədii şuralarda şou-biznes sahəsində tanınan şəxslərin çoxluq təşkil etməsi ictimaiyyətdə birmənalı qarşılanmır. Ekspertlər qeyd edirlər ki, biz efirləri şou müğənnilərindən təmizləmək istiqamətində mübarizə apardığımız bir vaxtda yaradılan bədii şuraların əsas tərkibini şou aləminə aid olanların təşkil etməsi mənfi haldır.

**Bakı Atatürk Mərkəzinin şöbə müdiri, şair-publisist, ziyalı Əkbər Qoşalı "Bakı-Xəbər"ə bildirdi ki, televiziyalarda bədii şuraların yaradılması çox müsbət hadisədir.** "Nə yaxşı ki, televiziyalarda bədii şuranın yaradılması ilə bağlı telekanal rəhbərləri qərar qəbul ediblər. Düzdür, mən hamını ittiham etmək düşüncəsindən uzağam. Ancaq, bununla belə, bədii şuralar formal xarakter daşımamalı, "yaratmaq" xatirinə yaradılmamalıdır.

Qeyd etməliyəm ki, bəzi özəl telekanallarda yaradılan bədii şuraların tərkibinin yalnız sənətçilərdən, şou-biznesçilərdən, telekanalların öz mütəxəssislərindən ibarət olması yaxşı hal deyil, bu belə olmamalıdır. Onlarla bərabər ictimai fikrin qidalanmasında rolu olan, kulturoloji düşüncənin cəmiyyətdə yayılmasında iştirak edən nüfuzlu alimlərin, yazıçıların, bu sahəni yaxından bilən millət vəkillərinin, QHT-lərin, çap mediası mənsublarının da bədii şura üzvlüyündə təmsil olunması çox faydalı olar. Çünki televiziyalarda bədii şuraların yaradılması zərurəti şou-biznes aləmində baş verənlərdən qaynaqlanır. Etiraf edək ki, bir çox şou-biznesçinin efirlərdəki davranışları, onların ifa tərzləri qənaətbəxş deyil. Problemi yaradan insanların yaratdıqları problemləri özlərinin həll edəcəyi real deyil. Bu o demək deyil ki, bizim şou-biznes aləmində televiziya işini, ictimai fikrin maraqlarını, yeni dövrün çağırışlarını bilənlər yoxdur, şübhəsiz ki, var. Bədii şuraların üzvlüyündə hansı sənətin təmsilçisi olmasından asılı olmayaraq, kimin seçilməsi vacibdir. Seçim məsələsi çox dərin düşüncənin məhsulu olmalıdır. Hesab edirəm ki, özəl telekanallarda bədii şuralar yaradılmamışdan əvvəl ictimai rəy öyrənilməli və sonradan həmin şəxslər şura üzvlüyünə qəbul edilməli idi. Bundan başqa, onların tərcümeyi-halı da dərindən araşdırılıb öyrənilməli idi" - deyə bildirən Ə.Qoşalının bildirdiyinə görə, bədii şuralarda şou-biznesçilərdən çox vətəndaş cəmiyyəti təmsilçilərinin, eləcə də tərxis olunmuş zabitlərin də təmsil olunması yaxşı olardı.

Ə.Qoşalı hesab edir ki, müğənnilər şairlərin sözünü oxuduğu üçün, bədii şuralarda şairlərin də təmsil olunmasına şərait yaradılmalı idi. "Bu gün özlərini təsdiq edən, yaradıcılığı ədəbiyyatşünaslıq mövzusuna çevrilən, yaradıcılığı xaricdə də tanınan, kitabları ilə bədii zövqün zənginləşməsinə xidmət edən şairlərin də bədii şuralarda təmsil olunması ümumi işimizin xeyrinə olardı" - deyə Ə.Qoşalı qeyd etdi.

**Filologiya üzrə fəlsəfə doktoru, şairə Qiymət Məhərrəmli də hesab edir ki, şou-biznesçilərin qeyri-etik hərəkətlərinin efirlərdən yığışdırılması, onların ifasına nəzarət edilməsi üçün yaradılan bədii şuralarda əsasən şou-biznesçilərin yer alması müsbət hal deyil.** "Əvvəllər bütün yaradıcılıq sahəsində bədii şuralar fəaliyyət göstərirdi və bu bədii şuralarda ölkəmizin çox mötəbər sənətkarları, şairləri, musiqiçiləri təmsil olunurdular. Bu gün isə özəl telekanallarda yaradılan bədii şuralarda əsasən şou-biznes təmsilçiləri yer alır. Şou-biznesçilərə bu qədər meydan vermək düzgün deyil. Azərbaycanın çox görkəmli musiqi, ədəbiyyat, elm xadimləri var, musiqişünaslarımız çoxdur. Televiziyalar onları dəvət etməlidirlər. Özəl kanalların bədii şuralarının əsas tərkibi şou-biznesçilərdən ibarətdirsə, onda onlar efirlərdə qeyri-etik davranışlar, əxlaqdan kənar nümunələr sərgiləyənlərlə necə mübarizə apara biləcəklər? Bunlar hamısı bir-birinə bağlı adamlardır. Şou-biznesçilərin özəl telekanalların bədii şuralarında böyük heyətlə təmsil olunması onu düşünməyə əsas verir ki, bu tərkib televiziyalardakı neqativ hallarla mübarizə apara bilməyəcək. Bu adamların çoxu şəxsi həyatı, eləcə də şou-biznesdə yaratdıqları qalmaqallarla gündəmdə olan adamlardır.

Bu gün o bədii şuralarda tanınmış söz adamları, alimlər də təmsil olunmalıdırlar ki, xalqın gerçək istəklərini televiziya rəhbərlərinə çatdıra bilsinlər" -deyə Q.Məhərrəmli vurğuladı.

***İradə SARIYEVA***

# İnsan alverinin qurbanı 800 azərbaycanlı - 70 faizi Türkiyənin hesabında...

**Qloballaşan dünyanın dəhşətli problemlərindən biri də insan alveri ilə bağlıdır. Sahə gəlirli olduğundan, bu yolla pul qazananların sayı da getdikcə çoxalır. Heç təsadüfi deyil ki, bu gün dünyada insan alveri öz miqyasına görə silah alverindən sonra ikinci geniş və ən çox gəlir gətirən sahə hesab olunur. Bir sıra ölkələr bu problemdən əziyyət çəkirlər.**




*"İnsan alverçiləri adətən belə məsələlərdə çox xərc çəkmək istəmirlər"*

***Mehriban Zeynalova:** "Bir amil dil yaxınlığı ilə bağlıdırsa, digər amil ərazinin yaxın olması ilə əlaqədardır"*

Bu arada məlum olub ki, Azərbaycan vətəndaşları daha çox Türkiyədə insan alverinin qurbanı kimi istismara məruz qalırlar. İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun "Azərbaycanda insan alverinə qarşı mübarizəyə dair" illik məlumatında qeyd edilib ki, ötən il ölkədə 22-i uşaq olmaqla, 863 nəfər insan alverinin qurbanı olub. 2018-ci ildə Azərbaycanda insan alveri qurbanlarının 812-si qadın, 73-ü kişi olub.

Ötən il ərzində insan alveri qurbanları arasında böyüklərin xüsusi çəkisi artıb. 2018-ci ildə insan alveri qurbanlarının 98 faizi böyüklər olduğu halda, 2017-ci ildə bu göstərici 71, 2016-cı ildə 70, 2015-ci ildə 63 faiz olub. İnsan alveri qurbanlarının istismara məruz qaldığı ölkələrin sırasında ilk yeri (70 faiz) Türkiyə tutur. İnsan alveri qurbanlarının 11 faizi Rusiyada, 9 faizi Birləşmiş Ərəb Əmirliyində, 6 faizi Azərbaycanda, 2 faizi Malayziyada, 1 faizi Pakistanda, 1 faizi İranda istismara məruz qalıb.

Ümumilikdə, 2005-2018-ci illərdə insan alveri və məcburi əmək cinayətlərinə görə 543 nəfər məsuliyyətə cəlb edilib. Onların 81-i (15 faiz) kişi, 462-si (85 faiz) qadın olub.

Görünən odur ki, Azərbaycan vətəndaşları daha çox Türkiyədə bu problemlə üzləşirlər. Maraqlıdır, ekspertlər bunun səbəbini nə ilə əlaqələndirirlər?

**Məsələyə münasibət bildirən "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova bunun səbəbini bir sıra amillərlə əlaqələndirdi:** "Bu daha çox dil yaxınlığı ilə bağlıdır. Çünki dil yaxınlığı səbəbindən iş dalınca Türkiyəyə gedən çox olur. İnsanlar əksər vaxt təhlükə gözləmədikləri üçün öz yaxınlarını Türkiyəyə aparırlar. Türkiyənin bizə yaxın olduğunu nəzərə alıb müəyyən risqləri nəzərə almırlar. Nəticədə belə xoşagəlməz hallarla üzləşirlər. Əvvəllər Dubaya gedən çox olurdu. Sonra elə oldu ki, bu şəhərin adı insan alverində çox hallandı. Dubay deyəndə o dəqiqə təsəvvürlərdə başqa fikirlər yaranırdı. Ona görə də Türkiyəyə üstünlük verildi. Bir amil dil yaxınlığı ilə bağlıdırsa, digər amil ərazinin yaxın olması ilə əlaqədardır. İnsan alverçiləri adətən belə məsələlərdə çox xərc çəkmək istəmirlər. Ona görə də coğrafi baxımdan yaxın olan ölkələrə daha çox üstünlük verirlər. Türkiyə də bu baxımdan Azərbaycana yaxın ölkədir. Başqa bir tərəfdən, tələb və təklif amili də burada müəyyən rol oynayır. Türkiyədə əhali çox olduğuna görə bu xidmətə müəyyən tələb var. Bu ölkədə turistlər çox olur. Bütün bunlar hardasa müəyyən tələbat formalaşdırır. İnsan alverçiləri də çalışırlar ki, bu kimi faktorlardan maksimum faydalansınlar.

Ona görə də belə hallarla mübarizədə əhalinin maarifləndirilməsinə xüsusi önəm verilməlidir. İnsanlar çox məlumatlı olsalar, o zaman belə hallarla üzləşmək risqi azalacaq. Görürsən ki, kimsə iş dalınca bu ölkəyə gedir, amma bilmədən insan alverinin qurbanı olur".

***Vidadi ORDAHALLI***

Azərbaycanda sərnişindaşıma ilə məşğul olan müəssisələr, daha dəqiqi, avtobus şirkətləri avtobuslarını sığortalamaq problemi ilə üzləşirlər. Sığorta şirkətləri avtobusları, xüsusilə də Bakı şəhəri daxilində marşrutlarda fəaliyyət göstərən avtobusları sığortalamaqda maraqlı deyillər.

# Bakıda ictimai nəqliyyatla sığorta şirkətləri arasında böyük problem var - Avtobusları sığortalamaqdan niyə imtina edilir...



*Ceyhun Əsgərov: "Sığorta şirkətlərinin avtobusları sığortalamaqdan imtina etməsi qanunsuzdur"*

*İlkin İbrahimov: "...bunun səbəbi qəzaların çox olmasıdır"*

Avtobus sahibləri artıq bir neçə ildir sığorta şirkətləri üçün arzuolunmaz müştəriyə çevrilib. Səbəb isə avtobus sürücülərinin tez-tez qəzalar törətməsidir.

Məlumat üçün bildirək ki, bir müddət öncə Bakının ən iri sərnişin daşıyıcılarından olan "Xaliq Faiqoğlu" şirkəti də sığorta şirkətlərinin avtobusları sığortalamamasından şikayətlənmişdi. Şirkətin yaydığı məlumatda qeyd olunurdu ki, son vaxtlar avtobusların iştirakı ilə baş verən qəzalar, eləcə də bu qəzalarda sərnişinlərin xəsarət alması ciddi problemlər yaradıb: "Nəticədə şirkətə və icbari sığorta təşkilatlarına külli miqdarda ziyan dəyib, hadisələr nəticəsində zərərlilik əmsalı yüksəlib. Məhz bu hadisələr səbəbindən bəzi sığorta şirkətləri ictimai nəqliyyat vasitələrini sığortlamaqdan imtina ediblər".

Danılmaz faktdır ki, son illər avtobusların iştirakı ilə yol-qəza hadisələrinin sayı artmaqda davam edir. Elə bu səbəbdən də sığorta şirkətləri avtobusları sığortalamaqda maraqlı deyillər. Məlumata görə, ötən il Binə qəsəbəsində avtobusun iştirakı ilə qəzadan sonra sığorta şirkətləri marşrut avtobuslarının sığortalanmasına qadağa qoyublar.

Qeyd edək ki, avtobusların icbari sığortalanması "İcbari sığortalar haqqında" Qanuna əsasən həyata keçirilir və qanuna əsasən, belə lisenziyası olan şirkətlər bundan imtina edə bilməzlər.

Onu da bildirək ki, avtobusların icbari sığortalanması üzrə sığorta haqlarının məbləği minik avtomobilləri ilə müqayisədə fərqlidir. Belə ki, oturacaqlarının sayı 17-dək olan avtobusların sığorta haqqı 150 manat, bundan çox olanlar isə 200 manatdır.

Sığorta təminatı isə minik avtomobillərində olduğu kimidir - əmlaka dəyən ziyana görə 5 min manat, sağlamlığa dəyən ziyana görə isə 50 min manat.

Bəzi sığorta şirkətlərinin marşrut xətlərində fəaliyyət göstərən avtobusları sığortalamadıqları bildirilir. Avtobusları yalnız sığorta şirkətlərinin saytına daxil olub, onlayn qaydada sığortalamaq mümkündür. Çünki vətəndaşın sığorta şirkətinə onlayn qaydada müraciəti zamanı sığorta şirkətləri müraciətdən imtina edə bilmirlər. Vətəndaşların və ya sığorta agentlərinin ictimai nəqliyyatda fəaliyyət göstərən avtobus sığortası üçün ofisə müraciəti zamanı isə mənfi cavab aldıqları bildirilir.

**Avtobusların nə səbəbdən sığortalanmaması barədə məlumat verən sığorta mütəxəssisi Ceyhun Əsgərov bildirib ki, qanunvericilikdə avtobusların sığortalanması ilə bağlı hər hansı bir qadağa yoxdur.** Sığorta şirkətlərinin avtobusları sığortalamaqdan imtina etməsi qanunsuzdur: "Sığorta şirkətlərinin ictimai nəqliyyat kimi istifadə olunan avtobusları sığortalamamasının səbəbi avtobus sürücülərinin tez-tez qəza törətməsidir. Sığorta şirkətləri agentlərə şifahi olaraq avtobusları sığortalamamağı tapşırırlar".

C.Əsgərovun sözlərinə görə, avtobusunu sığortalaya bilməyən və ya sığorta ödənişini ala bilməyən vətəndaş İcbari Sığorta Bürosuna müraciət edə və ya sığorta şirkətini məhkəməyə verə bilər.

**Sığorta eksperti İlkin İbrahimov bildirdi ki, Azərbaycanda sığorta şirkətləri avtobusları sığortalamaqda maraqlı deyillər:** "Bunun səbəbi qəzaların çox olmasıdır. Lakin bu o demək deyil ki, sığorta şirkətləri həmin avtomobilləri sığortalamayacaq. Qanunla məsələlər tənzimlənir: "İcbari sığortalar haqqında" Qanuna əsasən, ölkə ərazisindəki bütün nəqliyyat vasitələri icbari sığorta müqaviləsini məcburi şəkildə bağlamalıdırlar. Əgər bağlamırlarsa, həmin nəqliyyat vasitələrini Dövlət Yol Polisinin (DYP) yollardakı radarları müəyyən edir. Sığorta müqaviləsi bağlanmayana kimi hər 20 gündən bir bu qərar tətbiq edilir. Sığorta müqaviləsinin bağlanmaması avtomobil sahibinə də çox böyük ziyan vura bilər. Avtomobilin içərisindəki vətəndaşların sağlamlığına dəymiş ziyanı və ya qarşı tərəfə vurulan ziyanı icbari sığorta 55000 manat dəyərində sığortalayır. Əmlaka dəyən ziyan üzrə 5000, sağlamlığa dəyən ziyan üzrə isə 50 min manat sığorta təminatı verilir. Əgər bu növ sığorta olunmamışsa, avtomobil sahibi məsuliyyət daşıyır".

***Günel CƏLİLOVA***

Göygöl rayonunda ağır yol qəzası nəticəsində ölən və yaralananların adları məlum olub. Bunlar Daşkəsən rayon sakinləri - 1995-ci il təvəllüdlü Eldəniz Gəray oğlu Həsənov, 2018-ci il təvəllüdlü Rübab Eldəniz qızı Həsənova, 1934-cü il təvəllüdlü Firəngiz Dəmir qızı Orucova və 1958-ci il təvəllüdlü Nahidə Qəzənfər qızı Orucova (hamısı "VAZ-2107" markalı avtomobildə olublar), həmçinin, 1986-cı il təvəllüdlü Aslan Əbülfət oğlu Camalov, 1949-cu il təvəllüdlü Həmid Səməd oğlu Bayramov, 1995-ci il təvəllüdlü Sevinc Mehman qızı Camalova və 2016-cı il təvəllüdlü Hüseyn Aslan oğlu Camalovdur.

# Rayonlarda çoxluq təşkil edən "Jiquli" avtomobilləri - əsas təhlükə mənbələrindən biri...

## *Ərşad Hüseynov: "Formal olaraq belə avtomobil yararlı sayılır"*



*"Statistikaya görə, ölkəmizdəki avtomobillərin təxminən yarısı müasir təhlükəsizlik tələblərinə cavab vermir"*

Bundan əlavə, Gəncə şəhər sakini, 1991-ci il təvəllüdlü Ruhiyyə Ramiz qızı Həsənova xəsarət alıb.

Səhiyyə Nazirliyinin mətbuat xidmətinin əməkdaşı Səfayə Əhmədova məlumat verib ki, ölənlərdən 3-ü kişi, 3-ü qadın, 2-si isə uşaqdır. Hadisə Gəncə-Daşkəsən yolunda qeydə alınıb. "VAZ" markalı iki avtomobilin toqquşması nəticəsində baş verib.

Qeyd edək ki, hadisə ilə bağlı Daxili İşlər Nazirliyi də rəsmi məlumat yayıb və həmin xəbərdə hadisədə 8 nəfərin öldüyü rəsmi təsdiqini tapmış olur: "Aprelin 29-da, saat 12 radələrində Göygöl rayonunun Yeni Qızılca kəndi ərazisində Daşkəsən rayon sakinləri Eldəniz Həsənovun idarə etdiyi "VAZ-2107" və Aslan Camalovun idarə etdiyi "VAZ-2106" markalı avtomobillər toqquşub. Nəticədə E.Həsənov və həmyerliləri olan sərnişinləri Nahidə Orucova, habelə A.Camalov və həmyerliləri olan sərnişinləri Həmid Bayramov hadisə yerində, eləcə də E.Həsənovun qızı Rübab və digər sərnişini Firəngiz Orucova, A.Camalovun oğlu Hüseyn və arvadı Sevinc Camalova isə xəstəxanada ölüblər. E.Həsənovun digər sərnişini - arvadı Ruhiyyə Həsənova xəstəxanaya yerləşdirilib.

Baş İstintaq və Təhqiqat İdarəsi tərəfindən araşdırma aparılır".

Göründüyü kimi, çoxlu sayda insan tələfatı ilə nəticələnən hadisə iki köhnə sovet istehsalı olan "VAZ" markalı avtomobilin toqquşması nəticəsində qeydə alınıb. Yayılmış fotolardan da göründür ki, avtomobillər köhnədir, ən azı, 30 ildən yuxarı istismar müddəti var. Müşahidələr göstərir ki, bu avtomobillərdən adətən rayon yerlərində daha çox istifadə edilir. Ancaq gəlin razılaşaq ki, köhnə avtomobillərin təhlükəsizlik parametrləri, demək olar ki, yoxdur. Bu qəza bəlkə də yeni növ avtomobillərin toqquşması nəticəsində baş versəydi, insan ölümü bu qədər olmazdı. Təəssüf ki, bu problem həllini tapmayıb. Bundan sonra da biz analoji hadisələrin şahidi ola bilərik. Bunun üçün köhnə avtomobillərin utilizasiyasının aparılması zərurəti meydana çıxır. Qeyd edək ki, alternativ kimi, həmin şəxslər yerli istehsal olan, nisbətən ucuz qiymətə satılan avtomobillərlə öz parklarını yeniləyə bilərlər.

**Nəqliyyat məsələləri üzrə ekspert Ərşad Hüseynov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, belə bir addımın atılmasına doğrudan da ehtiyac var:** "Biz aprelin 29-da baş vermiş qəzadakı avtomobilləri gördük. Hər ikisi sovet istehsalı olan, ötən əsrin 70-ci illərinə aid modellərdir. Buna zərurət olsa da, ağır bir prosesdir. Yəni spontan olaraq, düşüb köhnə avtomobilləri yığmaq olmaz. 2018-ci ilin dekabr ayında "Yol hərəkəti təhlükəsizliyinə dair" Dövlət Proqramı qəbul edildi. Həmin proqramda utilizasiya nəzərdə tutulur. Ancaq bu elə bir prosesdir ki, gərək bütün parametrlər nəzərə alınsın. Bu dəqiqə Azərbaycan qanunvericilik aktlarına nəzər salsanız, orada utilizasiyadan heç söhbət belə getmir. Yalnız ötən il qəbul edilən proqramdan başqa. Proqramda nəzərdə tutulur ki, utilizasiya ilə bağlı ayrıca bir tədbirlər planı hazırlanmalıdır. Orada konkret göstərilməlidir ki, bu, hansı avtomobillərə şamil olunacaq, hansı qurum bu tədbirləri həyata keçirəcək, proqram kim tərəfindən maliyyələşdiriləcək və s. Bu suallar cavabı tapılmadığı üçün, proses həyata keçirilə bilmir. Bu səbəbdən də qanunvericilikdə olan boşluqdan yararlanan vətəndaşlarımız sovet dövründən qalan avtomobilləri istifadə edirlər. Formal olaraq belə avtomobil yararlı sayılır. Hansısa qurum onun idarə olunmasına etiraz edə bilmir. Qanunvericilik imkan versə, bu amillə ciddi mübarizəyə start verilər və olduqca zəruridir. Çünki ölkəmizin avtomobil parkının yenilənməsi həm də vətəndaşlarımızın ölüm risqlərini azaltmış olar. Yəqin ki, bu cür hadisələrin baş verməsi prosesi sürətləndirə bilər. Statistikaya görə, ölkəmizdəki avtomobillərin təxminən yarısı müasir təhlükəsizlik tələblərinə cavab vermir".

***Məhəmmədəli QƏRİBLİ***

# İnternetdə Azərbaycan uşaqlarının şüuraltına işləyən düşmən filmlər yayılır...

## **Sevinc Nuruqızı:** *"Azərbaycan uşağını hədəf seçən bəzi qruplaşmaların, cinayətkar dəstələrin zərərli fəaliyyətləri ilə bağlı uşaqlarımızı maarifləndirməliyik"*

**Gerçəklik bundan ibarətdir ki, ölkəmizdə yetkin insanlarla yanaşı, uşaq və yeniyetmələr də internet istifadəçisinə çevriliblər. Uşaqların internetdən istifadə edərək daha çox cizgi filmlərinə baxdığını, yeniyetmələrin isə əsasən oyunlar oynadığını güman edirik.**



*"Ermənilər ərazi bütövlüyümüzə, ordumuza qarşı təxribatçı cizgi filmləri çəkib internetə yerləşdirirlər"*

Sirr deyil ki, bu gün internet resurslarından yalnız xoşməramlı işlər üçün istifadə edilmir, bu məkanı bir çox cinayətkar qruplaşmalar, beyin yuma işini həyata keçirən xarici təşkilatlar öz "ov" predmetinə çeviriblər.

Araşdırmalar göstərir ki, internetdə uşaqların inkişafına zərər vuran resurslar gündən-günə inkişaf edir, miqyası genişlənir, hədəfi artır. İnternetdə müxtəlif şəbəkələr, forumlar fəaliyyət göstərir və bu forumlarda uşaqları cəlb edən bir sıra məsələlər qoyulur. Uşaqlara qarşı bəzi cinayətkar qrupların qanunsuz çağırışlar etməsi, onları müxtəlif təşkilatlara cəlb etməsi halları mövcuddur.

Ekspertlər təəssüflə qeyd edirlər ki, sosial şəbəkələrin, internet resurslarının mənfi cəhətləri müsbət tərəflərindən daha çoxdur. Ekspertlər qeyd edirlər ki, müxtəlif qara niyyətli qüvvələr uşaqları və yeniyetmələri müxtəlif yollarla aldadırlar. Onlar vurğulayırlar ki, son illər beynəlxalq cinayətkarlıq statistikasına nəzər yetirildikdə məhz insan alveri qurbanlarının sosial şəbəkələr vasitəsilə cəlb edilməsi tendensiyasının artması diqqəti cəlb edir. Ekspertlər onu da vurğulayırlar ki, uşaq və yeniyetmələri narkotik aludəçiliyinə cəlbetmə, müxtəlif zərərli dini cərəyanlara qoşma kimi hallar da mövcuddur.

Onu da qeyd edək ki, uşaqlarımıza qarşı törədilən internet terrorunda ermənilərin rolu da danılmazdır. Ümumiyyətlə, son dövrlər ermənilər bu istiqamətdə daha fəaldır. Onlar Azərbaycan adları ilə müxtəlif forumlar yaradaraq orada uşaqlarımıza müxtəlif psixoloji təzyiqlər göstərirlər. Onu da qeyd edək ki, bir müddət əvvəl ermənilər Azərbaycan Ordusu əleyhinə cizgi filmi də çəkiblər, özü də Azərbaycan dilində. Bu cizgi filmində Azərbaycan əsgərlərini "qorxaq", erməni əsgərlərini isə "cəsur" kimi təqdim ediblər. Bu cizgi filmi ilə ermənilər Azərbaycan uşaqlarına qarşı təxribat həyata keçirirlər. Bundan başqa da ermənilər Azərbaycan əsgərinə qarşı əlavə videoroliklər də çəkirlər. Görülən bütün işlərin hədəfi Azərbaycan uşağını təsir altına salmaq və onlara psixoloji zərbə vurmaqdır. Onu da deyək ki, bu məsələdə erməni aktyor, satirik Vardan Petrosyan xüsusilə canfəşanlıq göstərir. Bu məqamlar ermənilərin çəkdiyi "Kill Dim" cizgi filminin montaj olunmuş variantında verilir.

Qeyd edək ki, artıq Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi də xarici dövlətlər tərəfindən yaradılmış qapalı internet forumlarda azərbaycanlı uşaqlara qanunsuz çağırışlar edildiyini açıqlayıb. Komitədən bildirilib ki, EMO hərəkatı, satanizm ən bariz nümunələrdir və bunlarla mübarizə gücləndirilməlidir.

*"Müxtəlif qeyri-ənənəvi sektaların fəallığı da sirr deyil"*

Azərbaycanda transmilli cinayətkarlıqla mübarizə işinin daha gücləndiriləcəyini deyən komitə rəsmiləri hər kəsin bu hala qarşı mübarizə aparmalı olduğunu qeyd edirlər.

**Tanınmış uşaq yazıçısı Sevinc Nuruqızı hesab edir ki, müxtəlif maarifləndirici tədbirlər həyata keçirməklə internet vasitəsilə uşaqlarımıza qarşı yönələn zərərli çağırışların qarşısını almaqda gecikməməliyik.** "Bu gün çox təəssüf ki, internet vasitəsilə uşaqlarımıza qarşı müxtəlif istiqamətdə təxribatçı çağırışlar barədə məlumatlar alırıq. Şübhəsiz ki, burada ermənilərin də göstərdiyi fəaliyyəti nəzərə almalıyıq. Bilirsiniz ki, Azərbaycanı istəməyən qara qüvvələr, müxtəlif cinayətkar qruplar uşaqlarımızı hədəf seçiblər. Bu da ondan irəli gəlir ki, onlar Azərbaycan uşaqlarının sağlam inkişafını istəmirlər. Bizim uşaq və yeniyetmələr çox aktiv şəkildə internetdən istifadə edirlər. Bəzən valideyn nəzarəti olmur, bu halda uşaqlar müxtəlif "dost"ların toruna doğru irəliləyirlər. Əlbəttə, biz bu halın qarşısını almaq üçün təxirəsalınmaz işlər görməli, maarifçilik işlərini gücləndirməliyik. Bəzi forumlar, internet resurslarında yaradılan şəbəkələr uşaqları "maraqlı oyunlar" təklif etməklə özlərinə cəlb etmək istəyirlər. Müxtəlif qeyri-ənənəvi sektaların fəallığı da sirr deyil, onlar da uşaqlarımızı özlərinə cəlb etməyi hədəf seçiblər. Hətta bəzi sektalar öz zərərli baxışlarını uşaqların beyinlərinə yeritmək istəyirlər. Bunun üçün də onlar müxtəlif oyunlar yaradır, cizgi filmləri çəkir, hekayə və nağıllar təqdim edirlər. Uşaqlarımız isə bunun təhlükəli olduğunu bilmədən ona qarşı gedirlər.

Təəssüf ki, ermənilər bu sahədə də bizə zərbələr vurmağa alışırlar. Ermənilər Azərbaycan əleyhinə, ərazi bütövlüyümüzə, ordumuza qarşı təxribatçı cizgi filmləri çəkib internetə yerləşdirirlər. Uşaqlar da görürlər ki, bu cizgi filmləri Azərbaycan dilindədir, ona baxırlar. Bəzi uşaqlar onun təsirinə düşürlər də. Biz bu sahədə maarifçilik işləri aparmalı, dövlətçiliyimizi, qəhrəman ordumuzu, milli qəhrəmanlarımızı məktəblərdə, sosial şəbəkələrdə daha çox təbliğ etməliyik. Eyni zamanda da Azərbaycan uşağını hədəf seçən bəzi qruplaşmaların, cinayətkar dəstələrin zərərli fəaliyyətləri ilə bağlı uşaqlarımızı maarifləndirməliyik" - deyə S.Nuruqızı vurğuladı.

***İradə SARIYEVA***

# Sahibsiz heyvanların sağlamlığına nəzarət mexanizmlərinin yaradılması dövlət təminatına alınır...

## **Vüsalə Ali:** *"Sahibsiz heyvanlar üçün olan sığınacaqların sayı çox azdır"*

**Vaxtaşırı müəyyən kampaniyalar aparılsa da, Bakının küçələrində sahibsiz heyvanların sayı azalmır. Əksinə, şəhərin müxtəlif ərazilərindən sakinlərin şikayət dolu müraciətləri davam edir. Sahibsiz heyvanlara nəzarətin tətbiq olunması üçün müəyyən layihələr, mexanizmlər təklif olunub. Lakin bu günə kimi bu sahədə problem tam həll olunmayıb.**



*"Sahibsiz heyvanların sağlamlığına nəzarət mexanizmi yaradılarsa, ölkədə sahibsiz və xəstə heyvanların sayı azalar"*

Məlum olduğu kimi, Prezident İlham Əliyev "Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019-2025-ci illər üçün Dövlət Proqramı"nı təsdiq edib. Proqramda bir sıra məsələlər qeyd olunub. O cümlədən, sahibsiz heyvanlara nəzarət mexanizminin yaradılması qərara alınıb. Proqramda qeyd olunub ki, Qida Təhlükəsizliyi Agentliyi ilə yanaşı, Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları, qeyri-hökumət təşkilatları nəzarət mexanizmi yaratma prosesini 2020-ci ilə qədər həyata keçirəcək.

**Azərbaycanda sahibsiz heyvanların sağlamlığına nəzarət mexanizmi yaradılmasının əhəmiyyəti barəsində danışan ekspert Vüsalə Ali "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, bu gün ölkədə sahibsiz heyvanların sayı yetərincədir.** Təbii ki, sahibsiz heyvanların sağlamlıq vəziyyəti də narahatlıq doğurur: "Heyvanlarda tək quduzluq xəstəliyi deyil, çoxlu sayda xəstəlik müşahidə olunur. Sahibsiz heyvanlarla maraqlanan qurumların sayı azdır. Eyni zamanda, Azərbaycanda küçə heyvanlarına sahiblənmək istəyən insanların sayı çox azdır. Həmçinin, heyvanların qısırlaşdırılmasında da çox az adam iştirak etmək istəyir. Bəziləri hətta bunun günah olduğunu bildirirlər. Heyvanlar qısırlaşdırıldıqda həm aqressiyası azalır, həm də onların sayı azalır".

V.Ali onu da vurğuladı ki, sahibsiz heyvanlar üçün olan sığınacaqların sayı da çox azdır. Onlar da könüllülərin şəxsi hesabına qurulan təşkilatlarındır: "Azərbaycanda belə bir mədəniyyət formalaşdırılmalıdır. İnsanlar cins heyvanları almaq əvəzinə, küçədəki heyvanlara sahiblənməlidirlər. Əgər belə olarsa, küçədə sahibsiz heyvan qalmaz. Onu da deyim ki, Azərbaycanda sahibsiz ev heyvanlarına qarşı münasibət yaxşı deyil, ev heyvanlarına sahiblənən əksəriyyət də bunu dəb üçün edir. "Filankəsdə varsa, qoy məndə də olsun" deyə düşünürlər. İnsanlar bəzən heyvanlara oyuncaq məqsədilə yanaşır, oynadıb həvəsləri bitəndən sonra isə atırlar küçəyə".

**Həmsöhbətimizin sözlərinə görə, Prezident İlham Əliyev tərəfindən "Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019-2025-ci illər üçün Dövlət Proqramı" qəbul olunub. Həmin dövlət proqramında sahibsiz heyvanlara nəzarət mexanizminin yaradılması məsələsi də qeyd olunub: "Ümid edirəm ki, belə bir mexanizm tətbiq olunandan sonra sahibsiz heyvanlara xüsusi nəzarət ediləcək".**

***Günel CƏLİLOVA***

№ 77 (3975) ■ Qiymətİ: 40 qəpik

# BAKI XƏBƏR

www.baki-xeber.com

1 MAY 2019-cu il

## Pilotsuz təyyarələrə illərlə uçmağa imkan verəcək batareyalar...

**Kaliforniyada fəaliyyət göstərən "Alta Devices" startapı son dərəcə yüksək effektivliyə malik yeni "Anylight Solar" günəş batareyasını təqdim edib.**

Bu batareyalar xüsusi olaraq pilotsuz təyyarələr üçün işlənib hazırlanıb. Şirkətin iddiasına görə, yeni batareya dronlara illərlə havada qalmağa imkan verəcək. "ICTnews" bildirir ki, "Anylight Solar" batareyasının əsasını hazırda 29,1% rekord səmərəlilik göstəricisinə malik "Alta Devices"ın unipolyar qallium arsenid günəş batareyaları təşkil edir. Yeni batareyalara 20 km hündürlükdə aerodinamik xüsusiyyətlərin yaxşılaşdırılmasına və müxtəlif amillərdən (güclü ultrabənövşəyi şüa, ozon və ekstremal temperatur) qorunmağa kömək edən xüsusi örtük çəkilir.

## Elan

Şəki rayonu, Sarıca kənd sakini Qarayev Şöhrət Fazilcan oğlunun adına verilmiş sürücülük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Mirzəyev Elşən Fərman oğluna aid əmək kitabçası itdiyi üçün etibarsız sayılır.

Əhmədov Bəxtiyar Zülfüqar oğlunun adına 99-BO-999 dövlət nömrə nişanlı avtomaşının texniki pasportu itdiyi üçün etibarsız sayılır.

Maminov Rüfət Yusif oğlunun adına, Bakı şəhəri, Sabunçu rayonu, Ləhiş Bağlar Massivində yerləşən 1690 saylı bağın 16973 nömrəli müqaviləsi itdiyi üçün etibarsız sayılır.

Məsimov Alim Nəriman oğlunun adına, Sabunçu rayonu, Kürdəxanı qəsəbəsində yerləşən, Abşeron Rayon İcra Hakimiyyəti tərəfindən verilmiş 5 sot torpağın DƏDR-dən çıxarışı 25.02.2019-cu il tarixində itdiyi üçün etibarsız sayılır.

Bakı Dövlət Universitetinin III kurs tələbəsi Mahmudova Süsən Abdurəhman qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Hüseynov Şükür Ulduz oğluna verilmiş (hərbi bilet NZ 4877450 saylı, 21.04.1985-ci il tarixli) Əfqanıstan müharibəsi veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Niyazova Nərmin Polad qızına Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi tərəfindən verilmiş 1001064 A saylı xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

Qocayev Hüseyn Həsən oğluna DİN BDYPİ QİŞ tərəfindən verilmiş sürücülük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Musayeva Mirvari Əkbər qızının adına, Bakı şəhəri, Xətai rayonu, General Şıxlinski küçəsi, ev 25, mənzil 53 ünvanının RX1241587 nömrəli çıxarışı itdiyi üçün etibarsız sayılır.

Heydərzadə Səbuhi İsrafil oğlunun adına, Abşeron rayonu, Masazır qəsəbəsi, Bəhlul Abışov küçəsində yerləşən torpağın çıxarışı itdiyi üçün etibarsız sayılır.

Tağızadə Qara Əbdülhəsən oğlunun adına, Bakı şəhəri, Yasamal rayonu, Ə.Cəmil küçəsi, ev 65, mənzil 160 ünvanının qeydiyyat vəsiqəsi (çıxarış) itdiyi üçün etibarsız sayılır.

Əsədova Laçın Xudabaxış qızının adına, Bakı şəhəri, Səbail rayonu, Ş.Şamil küçəsi, ev 22/29, mənzil 30 ünvanının çıxarışı itdiyi üçün etibarsız sayılır.

## "Nar" abunəçilərinin nəzərinə!

**10.05.2019-cu il tarixindən etibarən "Nar"ın korporativ tariflərində dəyişikliklər olacaq.** Daha ətraflı məlumatı www.nar.az saytından əldə edə bilərsiniz.

## "Nar" eşitmə məhdudiyyətli insanlar üçün peşə təlimlərinə başlayır

**"Nar" fiziki məhdudiyyətli insanlara dəstək və onların cəmiyyətə inteqrasiyası üçün korporativ sosial məsuliyyət (KSM) layihələrini davam etdirir. Mobil operator eşitmə məhdudiyyətli insanların müxtəlif ixtisaslara yiyələnməsi və onların işlə təmin olunması üçün növbəti "Təlim məktəbi" layihəsinə start verir.**




"Karlara Dəstək" İctimai Birliyi ilə birgə reallaşacaq layihə çərçivəsində üç qrupdan ibarət olan vətəndaşlar 3 aylıq peşə kurslarında təlim keçəcəklər. İştirakçılar aşpaz, şirniyyat ustası, motorçu və s. bu kimi ixtisaslara yiyələnəcəklər. Layihə təcrübəli mütəxəssislər tərəfindən aparılacaq.

Qeyd edək ki, "Nar" tərəfindən təşkil edilən "Təlim məktəbi" layihəsi eşitmə məhdudiyyəti olan insanların yeni bacarıqlar əldə etməklə cəmiyyətə inteqrasiyasına dəstək olmaq məqsədi daşıyır.

"Nar"ın İctimaiyyətlə Əlaqələr Departamentinin rəhbəri Əziz Axundovun sözlərinə görə, mobil operator fiziki məhdudiyyətli insanların cəmiyyətə inteqrasiya olunması üçün uzun müddətdir uğurlu layihələr icra edib: "Artıq 3 ildən çoxdur eşitmə məhdudiyyətli insanlar üçün bu cür təlimlər təşkil etməklə, onların müxtəlif peşəyə yiyələnməsinə və iş bacarıqlarının artmasına töhfə verirk. Məqsəd fiziki məhdudiyyətli şəxslərə mənəvi dəstək göstərməklə yanaşı, onları cəmiyyətə inteqrasiya etməkdir. Layihə ilkin olaraq paytaxtda yaşayan eşitmə məhdudiyyətli insanları əhatə edəcək. Gələcəkdə isə bütün bölgələrdən olan eşitmə məhdudiyyətli şəxslər üçün peşə təlimlərinin keçirilməsini nəzərdə tuturuq".

"Karlara Dəstək" İctimai Birliyinin sədri Kamran Abbasov isə bildirib ki, eşitmə və danışma məhdudiyyəti olan insanların cəmiyyətə inteqrasiya olunması istiqamətində mövcud olan problemlərin həlli cox vacibdir: "Əsas məqsədimiz bu insanların normal həyata qaytarılmasına, sosial və maddi, hüquqi, mülki və qanunvericiliklə bağlı problemlərinin həllinə kömək etməkdir. Eşitmə məhdudiyyətli insanlar müəyyən peşəyə yiyələnməklə həyatlarını maddi və mənəvi cəhətdən asanlaşdırır. "Təlim peşəsi" layihəsi eşitmə məhdudiyyətli insanların təhsil almasından sonra işlə təmin olunmasına yardım edəcək."

"Nar"ın korporativ sosial sosial məsuliyyət (KSM) strategiyası haqqında ətraflı məlumatı nar.az saytından əldə edə bilərsiniz.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7400-dən artıq baza stansiyası ilə 2,2 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir.





**Qoç** - Titan və Himaliya sizə uğurla bahəm, problemlər də vəd eirlər. Hər işin bir nəticəsi var, onlar da müəyyənliklə fərqlənirlər. Çətinliklərlə qarşılaşsanız belə, inad və qətiyyətlə irəliləyin.



**Buğa** - Fobos və Sinopenin münasibətləri günü sərt, çərçivəli yaşama çevirəcək. Tərəfdaşınız stabillik və təminata ehtiyac duyursa, fəaliyyət ərazisini dəqiq müəyyənləşdirin, fərdiyyətçiliyinizi qoruyaraq uğurunuzu nümayiş etdirin.



**Əkizlər** - Mimasa və Ledanın münasibətləri ətrafınızda baş verən hadisələrin sizi gərginlikdə saxlamasına rəvac verəcək. Rəqiblər qaydaları pozacaq, "partizan savaşı" aparacaq, sizi cavab tədbirlər barədə düşünməyə vadar edəcək.



**Xərçəng** - Neptun və Plutonun münasibətləri hisslərinizdə qarışıqlıq, işlərinizdə isə rasionallıq yaradacaq. Mümkün qədər tez həll etmək istədiyiniz işlərlə məşğul olun. Əvvəlki dönəmlərlə müqayisədə indi daha çox güzəştə getməli olacaqsınız.



**Şir** - Lisiteya və Pasifenin münasibətləri təşəbbüslərinizlə ideyalarınızın təqdimatı üçün uğurlu gün deyil. Planlarınızı açıqlamayın, əks halda, onlardan rəqiblər yararlana bilərlər. Diqqəti özünüzə cəlb etməyin.



**Qız** - Hiperion və Mimasın münasibətləri yaxın ətrafınızda anlaşılmazlıq, dolaşıqlıq yarada bilər. İş yoldaşı və ya tərəfdaşlarınızdan biri "oyun"dan çıxa bilər. İşgüzar və şəxsi həyatda "boşalan" yeri doldurmağa tələsməyin.



**Tərəzi** - Amalteya və Demosun münasibətləri sizdən maddi məsələlərdə çox realist davranmağı tələb edir. Bu yaxınlara qədər ciddi önəm verdiyiniz insana münasibətlərinizdə soyuma müşahidə oluna bilər.



**Əqrəb** - Uran və Merkurinin münasibətləri istənilən problemlərlə ifrat səyləri, habelə lazımsız təvəccöhləri kənarlaşdırmağı məsləhət bilir. Tənbəllik və ya alternativ maraq səylərinizi üstələməsin.



**Oxatan** - Uran və Saturnun münasibətləri maraqlar toqquşmasında müşahidəçi mövqeyi tutmağı məsləhət bilir. Öhdəlik və həvalə edilmiş işi yerinə yetirin, yeni ideya və planlarını bəyan edərək sizə yeni iş tapşırmaq istəyən adamların çağırışlarına məhəl qoymayın.



**Oğlaq** - Serera və Yupiterin münasibətləri sizə seçim anının yaxınlaşdığını bildirir. Fəqət, təminat və vasitələrin kasadlığı seçimi çətinləşdirə bilər. İstənilən şübhəni təhlil edin, fikirləşmək və qərar verməyə vaxt ayırın.



**Dolça** - Haumea və Makumakenin münasibətləri nüfuzlu insanla aranızdakı münasibətləri gərəcək. Yaxın ətrafınızdakı insanların tələblərlə təzyiqləri rahat işə imkan vermir, həyatın tempi sürətlənir.



**Balıqlar** - Serera və Neptunun münasibətləri qüvvənizi, enerjinizi artıracaq. Bəndlərin dağılması, divarların alt-üst edilməsi, daxili qiyam və zahirdəki şərtlərə üsyan mümkündür. Bütün bunlar yaşamda ciddi dəyişikliklərə səbəb ola bilər.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Çin yaxın 10 ildə Aya insan göndərməyi planlaşdırır



**Çin Ayın cənub qütbündə elmi-tədqiqat stansiyası inşa etməyi və təxminən 10 il sonra idarə olunan Ay missiyasını həyata keçirməyi planlaşdırır.**

Çin Dövlət Kosmik İdarəsinin rəhbəri Çjan Keszyan belə bəyanatla çıxış edib. "ICTnews" bildirir ki, idarənin rəhbəri, həmçinin bildirib ki, Çinin "Çanye-5" zondu cari ilin sonunadək Ayın torpaq nümunələrini Yer kürəsinə gətirməlidir və bu nümunələr Mao Tszedunun vətəni olan Şaoşanda saxlanılacaq. Bundan başqa, o öz çıxışında qeyd edib ki, Çin 2020-ci ildə ilk Mars zondunu buraxacaq. Xatırladaq ki, Çin 24 aprel 1970-ci il tarixində dünya kosmik dövlətlər klubuna qoşulub. 2016-cı ildən etibarən aprelin 24-ü Çində Kosmonavtika Günü kimi qeyd olunur.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*
Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*
*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846
Qəzet həftədə 5 dəfə çıxır.
(Bazar və bazar ertəsindən başqa).
«BZ»-də çap olunur.
*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.